# 2023-2024-CÜ TƏDRİS İLİ

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# NAİLİYYƏTLƏR VƏ UĞURLAR



Naxçıvan şəhəri, Universitet şəhərciyi
+994 36 544 08 61

# Mündəricat

2024

NAİLİYYƏTLƏRİMİZ VƏ UĞURLARIMIZ


| | |
|---|---|
| Ön söz | 04 |
| Tədrisin təşkili | 08 |
| Yeni tədris ilindən fəaliyyətə başlayan ixtisaslar | 11 |
| Məzunlarla iş | 12 |
| Dövlət Proqramının icrası | 15 |
| Əcnəbi müəllimlər | 19 |
| Təlimlər | 24 |
| Əziz Səncər NDU-da! | 26 |
| Beynəlxalq əlaqələr | 29 |
| IELTS və SAT mərkəzləri | 37 |
| Orta ixtisas təhsili müəssisələrimiz | 41 |
| Beynəlxalq reytinq şirkətləri ilə əməkdaşlıq | 45 |
| Elmi fəaliyyətin təşkili | 48 |
| Universitet-Sənaye işbirliyi | 51 |
| İşəqəbul göstəricilərimiz | 52 |
| Dövlət Qulluğuna qəbul göstəricilərimiz | 54 |
| Keyfiyyət təminatı | 55 |
| “Qərbi Azərbaycana qayıdış” festival-konqresi | 56 |
| Tələbələrimizin nailiyyətləri | 61 |
| İncəsənət sahəsində uğurlarımız | 65 |

# Mündəricat

2024

NAİLİYYƏTLƏRİMİZ VƏ UĞURLARIMIZ


| | |
|---|---|
| Kapital Bank ASC ilə əməkdaşlıq | 68 |
| Türk Dünyası Tibb Qurultayı | 69 |
| Robotex Azərbaycan | 70 |
| IBM ilə əməkdaşlıq | 71 |
| Enactus | 73 |
| FEMİDA könüllüləri | 74 |



## ÖN SÖZ

Başa vurduğumuz 2023-2024-cü tədris ili Naxçıvan Dövlət Universiteti üçün bir sıra strateji hədəflərin uğurlu icrası ilə yadda qaldı. Belə ki, bu tədris ilində də Universitetimizin rəqabətqabiliyyətliliyini artırmaq istiqamətində ölkə Prezidenti, Cənab İlham Əliyevin müvafiq sərəncamlarının və Elm və Təhsil Nazirliyinin müvafiq qərarlarının icrasına uyğun olaraq bir sıra yeniliklərin tətbiqinə nail olunmuşdur. Hesabat dövründə universitetdə kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan təhsil modelinə xüsusi önəm verilmişdir. Strategiyamız həm də təhsil sistemində gedən modernləşmə və məzmun islahatlarının dərinləşməsi zəminində gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaqdan ibarət olmuşdur.

Daxili Keyfiyyət Təminatı Sistemi üzrə təhlil və qiymətləndirmə üçün istifadə olunan keyfiyyət göstəriciləri universitet rəhbərliyini, təhsilverənləri, təhsilalanları, elmi tədqiqatları, infrastrukturu, iş və tədris şəraitini əhatə etmiş, keyfiyyət göstəricilərinin qiymətləndirilməsi rəy əsaslı və ölçülə bilən göstəricilər olmaqla iki formada həyata keçirilmişdir.

NDU Strateji İnkişaf Planında 4 əsas prioritet istiqamət kimi tədris, tədqiqat, beynəlmiləlləşmə və resurs göstəriciləri bu tədris ilində də diqqətdə saxlanılmışdır. Əsas məqsəd və hədəflər məhz bu prioritet istiqamətlərin inkişafına indekslənmişdir.

Elektron universitet layihəsi tədrisin inkişafına və NDU-da tələbə və müəllimlərin peşəkarlığının artırılmasına, və dünya universitetləri ilə inteqrasiyanın sürətləndirilməsinə kömək etmiş, təhsil prosesində şəffaflığın gücləndirilməsinə nail olunmuşdur.

Elmi tədqiqatlar kafedralar nəzdində fəaliyyət göstərən tədqiqat mərkəzləri və labaratoriyalarda aparılmış, elmi tədqiqatların stimullaşdırılması üçün differensial əməkhaqqı sistemi və nüfuzlu jurnallarda məqalə nəşrinə görə mükafatlandırma ilə qiymətləndirilmişdir.

Beynəlmiləlləşmə məqsədilə universitet nüfuzlu xarici universitetlərlə əməkdaşlıq protokolları imzalamış və mobilliyi təmin etmişdir. Bununla yanaşı, elmi seminarlar, ortaq konfranslar və simpoziumlar təşkil edilmişdir. Beynəlxalq imtahanların əlçatanlığının təmin olunması üçün universitetdə IELTS və SAT imtahan mərkəzlərinin fəaliyyət uğurla davam etdirilmişdir.

2023-2024-cü tədris ilinin nailiyyətlərini ümumiləşdirsək aşağıdakı başlıqlar üzrə qruplaşdırmaq olar:

- NDU nəzdində Gimnaziya açıldı;
- Kembric Universitetinin lisenziyası əsasında NDU Beynəlxalq Kembric Məktəbi fəaliyyətə başladı;
- Dünyanın Texnologiya lideri olan IBM-lə NDU arasında əməkdaşlıq müqaviləsinə əsasən Universitetdə IBM Mərkəzi istifadəyə verildi;
- Yeni ixtisaslar:

- İnformasiya təhlükəsizliyi (tədrisi ingilis dilində)
-Tibb ixtisası (tədrisi ingilis dilində)
-Tibb bacısı işi,

Magistratura səviyyəsində:
- Nanoelektronika;
- MBA (Səhiyyənin idarə edilməsi) ixtisaslarına tələbə qəbulu aparıldı;

- Tibb ixtisası üzrə SABAH qrupları fəaliyyətə başladı;
- 10 Əcnəbi professor təlim və tədqiqata cəlb edildi;
- Nobel mükafatçısı Əziz Səncər NDU - nun qonağı oldu;
- NDU- nun IELTS imtahan mərkəzində qrafik üzrə imtahanlar uğurla keçirildi;
- Xarici Dillər fakültəsinin və digər fakültələrin ingilisdilli ixtisaslarında dərs deyən professor-müəllim heyəti və Kembric Məktəbimizin müəllimlərinin IELTS imtahan sertifikatları Universitet hesabına təmin edildi;
- NDU- nun SAT imtahan mərkəzində yerli şagirdlərlə yanaşı, əcnəbi məktəblilərin də iştirakı təmin edildi;
- Beynəlxalq reytinqlərdə bir sıra göstəricilər üzrə irəliləyişlər qeydə alındı;
- Elmi tədqiqatlar sahəsində əhəmiyyətli irəliləyişlər oldu;
- Universitet-sənaye işbirliyinə dair bır sıra razılıqlar əldə olundu:

- Sahibkarlar Konfederasiyası;
- Kapital Bank ASC;
- Ləzzət Qida Sənaye MMC;
- Cahan Holdinq;
- APF Group MMC arasında əməkdaşlıq memorandumu imzalandı.

- 223 nəfər NDU və tabe qurumlarında işə qəbul olundu;
- 2024-cü il NDU tarixində ən çox məzun verdiyi il oldu- 2198 nəfər;
- Dövlət İmtahan Mərkəzinin ölkə üzrə keçirdiyi dövlət qulluğuna qəbul imtahanlarında

NDU-nun məzunları ən yüksək nəticəni göstərərək Universitetimizi lider ali məktəbə çevirdilər;

- Qərbi Azərbaycana Qayıdış festival/konqresini uğurla başa vurduq;
- NDU-nun təşkilatçılığı ilə 4 min nəfər gənc məzunun və 40-a yaxın dövlət, özəl qurumların iştirakı ilə ilk dəfə Karyera sərgisi açıldı;
- Tibb fakültəmiz Avropa Tibb Tələbələri Assosiasiyasına ( EMSA) üzv qəbul olunaraq ölkə təmsilçisi statusu qazandı;
- Naxçıvan Dövlət Universiteti ROBOTEX-in ölkə təmsilçisi kimi Bakı şəhərində Dünya Robot Festivalının Avrasiya Çempionatını təşkil etdi, 5 mindən artıq iştirakçı qeydə alındı;
- NDU-nun 150 nəfərdən ibarət Simfonik orkestrinin Azərbaycan Dövlət Akademik Filarmoniyasında möhtəşəm konsert proqramı oldu;
- Konservatoriyanın təşkilatçılığı ilə "Naxçıvanda Jazz sədaları" adı altında Heydər Əliyev sarayında ilk Jazz konserti keçirildi;
- IBM və NDU arasında əməkdaşlıq müqaviləsinə əsasən təlimlər keçirildi;
- ENACTUS komandamız 5- ci dəfə ölkə çempionu kimi qalib oldu. Ölkəmizi təkrar dünya çempionatında təmsil hüququ qazandı;
- ENACTUS Qlobal Şirkəti 5 dəfə çempion olan NDU-ya xüsusi diplom təqdim etdi;
- NDU-nun təsisçisi olduğu Beynəlxalq Tibbi Forum bu dəfə İstanbulda, Yeditəpə Universitetində Türkdilli Dövlətlərin Tibb Qurultayı (ikinci forum) adı altında təşkil edildi.

Əziz oxucu!

2024-2025-ci tədris ilində daha böyük yeniliklər bizi gözləyir. Sizi yeni tədris ilinin başlanması münasibətilə təbrik edir, şəxsi və təhsil həyatınızda bol nailiyyətlər arzu edirəm!

Hörmətlə,

**Elbrus İSAYEV**
*Naxçıvan Dövlət Universitetinin rektoru*

Zəngin və şərəfli inkişaf yolu keçən Naxçıvan Dövlət Universiteti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideyalarına köklənmiş dövlətçilik universitetidir. Naxçıvanda elmin və təhsilin inkişafı sahəsində görülən işlər bu ali təhsil ocağının timsalında daha aydın görünür. Bu gün burada geniş quruculuq tədbirləri aparılır. Naxçıvan Dövlət Universitetində 10 fakültə, Magistratura mərkəzi, Xarici tələbələrlə iş üzrə dekanlıq, 3 kollec və 1 beynəlxalq məktəb fəaliyyət göstərir. Universitetdə təhsilin üç istiqaməti üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlanır. Ali təhsil ocağında kadr hazırlığı ilə 524 nəfər professor müəllim heyəti məşğul olur ki, onlardan 1 nəfər akademik, 30 nəfəri elmlər doktoru, 183 nəfəri isə fəlsəfə doktorudur. Universitetin əməkdaşlarından 19 nəfəri professor, 140 nəfəri isə dosentdir. Naxçıvan Dövlət Universitetinin 5 nəfər əməkdaşı AMEA-nın müxbir üzvüdür.





# TƏDRİSİN TƏŞKİLİ

Müasir tipli və çoxprofilli dünya təhsil sisteminə inteqrasiya edən universitetimizdə hesabat ilində 10178 tələbə təhsil almışdır. 10 fakültə üzrə bakalavr təhsil səviyyəsinin əyani və qiyabi şöbələrində 76 ixtisas üzrə 7820, o cümlədən 1394 əcnəbi tələbə, magistratura təhsil səviyyəsində 75 ixtisaslaşma üzrə 380 magistrant, o cümlədən 4 əcnəbi magistrant, doktorantura səviyyəsi üzrə 93 və rezidentura üzrə 92 nəfər rezident təhsil alır.

Universitetdə hazırlıq şöbəsi dinləyiciləri ilə birlikdə 1641 əcnəbi tələbə təhsil almışdır ki, onlar Türkiyə, İran, Nigeriya, Rusiya, Özbəkistan, Cənubi Koreya, və Pakistandandır.

Naxçıvan Musiqi Kolleci, Naxçıvan Texniki Kolleci və Naxçıvan Tibb Kollecində hazırda subbakalavr təhsil pilləsində əyani şöbədə 1490 tələbə, qiyabi şöbədə isə 38 tələbə təhsil alır.

Hesabat dövründə kafedralar üzrə 363314 saat dərs yükü yerinə yetirilmişdir ki, bunun 235313 saatı ştatda olan dərs yükü kimi 128001 saatı isə saathesabı qaydada icra olunmuşdur. Yeni təhsil standartlarına keçidlə əlaqədar tədbirlər davam etdirilmiş, 2023-2024-cü tədris ilində təhsil sisteminin bütün pillələrində Bolonya prosesinin tələblərinə uyğun olaraq, təhsilin kredit sistemi ilə təşkili həyata keçirilmişdir. Tədris prosesi ilə əlaqədar işlər vaxtında və qüvvədə olan təlimatlara uyğun şəkildə təşkil edilmişdir.

2023/2024-cü tədris ilində bütün təhsil səviyyələri üzrə 2198 tələbə Naxçıvan Dövlət Universitetindən məzun olmuşdur.

2023-2024-cü tədris ilində Naxçıvan Dövlət Universitetində bakalavr və magistr təhsil səviyyələrinə aşağıdakı yeni ixtisaslar üzrə qəbul layihəsi verilmiş və təsdiq olunmuşdur.

**Bakalavr səviyyəsi üzrə:**
1. İnformasiya təhlükəsizliyi (tədrisi ingilis dilində)
2. Tibb bacısı işi

**Magistratura səviyyəsi üzrə:**
1. Nanoelektronika
2. MBA (Səhiyyənin idarə edilməsi)
3. Beynəlxalq jurnalistika
3. Azərbaycan qədim və orta əsrlər tarixi
4. Təlim və tədrisin təşkili və metodikası
5. İnformatika

Universitet fakültələrinin hər birində tədris prosesində yeni texnologiyalardan istifadəyə geniş şərait yaradılmışdır. Bütün bunlar təlimin keyfiyyətinin yüksəldilməsinə, əyaniliyin möhkəmlənməsinə müsbət təsir göstərmişdir. Tədris prosesində İKT-nin tətbiqi sahəsində tədbirlərin daha da genişləndirilməsi üçün müəyyən işlər görülmüş və hazırda davam etdirilməkdədir. Belə ki, semestrin əvvəllərində professor-müəllim heyətinin fənlər üzrə mühazirə mətnləri elektronlaşdırılmış və ixtisaslar üzrə tələbələrin şəxsi kabinetlərinə (LMS-ə) yerləşdirilmiş, semestrin əvvəlində fənlərin yekunda hansı qaydada imtahanlarının aparılması ilə bağlı tələbələrə əvvəlcədən məlumatlar verilmiş və cari qiymətləndirmələr buna uyğun aparılmışdır.

Yaz və payız semestrinin imtahan sessiyaları Boloniya prosesinin tələblərinə və "Tədrisin kredit sisteminə uyğun qurulması qaydaları"na uyğun təşkil edilmişdir;
İT Şöbəsinin fəaliyyəti imtahanların obyektiv və şəffaf keçirilməsini təmin etməklə yanaşı, imtahanlara ictimai nəzarəti gücləndirmişdir;
Elektron universitet layihəsinin tətbiqi tədrisin inkişafı, eləcə də NDU-da tələbə və müəllimlərin peşəkarlığını artırmaq və dünya universitetləri ilə inteqrasiyanı sürətləndirmək üçün əlverişli vasitəyə çevrilmişdir;
İmtahanların təşkili və keçirilməsi üçün QR code ilə şifrələnməsi və imtahan nəticələrinin whatsapp üzərindən göndərilməsi üçün mobil tətbiq hazırlanmışdır;

Elektron təhsil layihəsinin tətbiqi və özü ilə bərabər gətirdiyi yeniliklər növbəti tədris ilinin prioritet istiqamətinə çevrilmişdir.
2023/2024-cü tədris ilinin payız və yaz imtahan sessiyasının nəticələri aşağıdakı kimi olmuşdur:

Payız imtahan sessiyası
Bakalavr səviyyəsi üzrə (əyani)
Müvəffəqiyyət faizi 80,87 %
Keyfiyyət faizi 31,47 %

Bakalavr səviyyəsi üzrə (qiyabi)
Müvəffəqiyyət faizi 82,61 %
Keyfiyyət faizi 12,80 %

Magistratura səviyyəsi üzrə
Müvəffəqiyyət faizi 87,3 %
Keyfiyyət faizi 78,43 %

Yaz imtahan sessiyası
Bakalavr səviyyəsi üzrə (əyani)
Müvəffəqiyyət faizi 79, 32 %
Keyfiyyət faizi 37,99 %

Bakalavr səviyyəsi üzrə (qiyabi)
Müvəffəqiyyət faizi 91,35 %
Keyfiyyət faizi 20 %

Magistratura səviyyəsi üzrə
Müvəffəqiyyət faizi 93,2 %
Keyfiyyət faizi 68,44 %

**Təcrübələrin təşkili**

Mövcud tədris planlarına əsasən tələbələr ali məktəbdə aldığı nəzəri bilikləri möhkəmləndirmək, dərinləşdirmək və sonrakı əmək fəaliyyətlərinə peşəkarcasına yanaşmaq üçün təcrübə keçməkdədirlər.
Buna əsasən 2023-2024-cü tədris ilində tələbələr öz ixtisaslarına uyğun olaraq təcrübələrə yollanmışlar və təcrübələri uğurla başa vurmuşlar.
2023-2024-cü tədris ilində ümumilikdə 38 müəssisə ilə müqavilə bağlanmışdır. Universitet üzrə 127 nəfər tələbə təcrübəyə yollanmışdır. Onlardan 17 nəfər tələbə pedaqoji təcrübə, 110 nəfər tələbə istehsalat təcrübəsi keçmişdir. 9 müəssisə ilə müqavilə bağlanmışdır.

2023-2024-cü tədris ilinin ikinci yarısında 29 müəssisə ilə müqavilə bağlanmışdır. İkinci yarımildə universitet üzrə 1101 nəfər tələbə ixtisasları üzrə, pedaqoji internatura 359 tələbə, istehsalat təcrübəsi 742 tələbə (onlardan 651 tələbə əyani şöbə üzrə, 77 tələbə əlavə ali təhsil üzrə, 14 tələbə əlavə qrup üzrə) təcrübəyə yollanmışdır.
İkinci yarımildə Tibb fakültəsi üzrə 116 nəfər tələbə, 10 rezident Türkiyə Cumhuriyyətinin müxtəlif universitetlərində təcrübə keçmişlər.

25 tələbə Ankara Universitetində
35 tələbə, 8 rezident Gazi Universitetində
25 tələbə Qaradəniz Texnik Universitetində
31 tələbə 2 rezident İzmir Ege Universitetində

Təcrübə keçən tələbələrin sayı – 1228 (127-si I yarımil, 1101-i II yarımil)
Pedaqoji internatura - 376 (17-si I yarımil, 359-u II yarımil) (17-si qiyabi, 359-u əyani)
İstehsalat təcrübəsi - 852 (110-u I yarımil, 742-si II yarımil) (110-u qiyabi, 651-i əyani, 77-si əlavə ali təhsil, 14-ü əlavə qrup)

Aşağıdakı cədvəldə 2022, 2023, 2024- cü illər üzrə tələbə sayı və akademik heyət arasındakı nisbəti verilmişdir:

| Professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti | |
|---|---|
| **2022** | **Cəmi tələbə sayı- 6569**<br>**Akademik heyətin sayı- 460** |
| **2023** | **Cəmi tələbə sayı- 7030**<br>**Akademik heyətin sayı- 524** |
| **2024** | **Cəmi tələbə sayı- 8389**<br>**Akademik heyətin sayı- 516** |



# 2024-2025-Cİ TƏDRİS İLİNDƏN ETİBARƏN FƏALİYYƏTƏ BAŞLAYAN İXTİSASLAR

### İnformasiya Təhlükəsizliyi (ingilis dilində)

Bu ixtisas informasiya texnologiyaları və kiber təhlükəsizlik sahəsində peşəkar biliklər qazandırır. Tədris proqramı məlumatların qorunması, şəbəkə təhlükəsizliyi, kiber hücumların qarşısının alınması və təhlükəsizlik protokollarını əhatə edir. Proqram ingilis dilindədir və tələbələr beynəlxalq standartlara uyğun biliklər əldə edəcəklər. Məzunlar müxtəlif kiber təhlükəsizlik problemlərinin həlli və təhlükəsizlik siyasətləri ilə bağlı mütəxəssis olaraq fəaliyyət göstərə bilərlər.

### Tibb Bacısı İşi

Bu ixtisas səhiyyə sahəsində müasir bilik və praktiki bacarıqları əldə etmək istəyən tələbələr üçün nəzərdə tutulub. Tədris proqramı tibbi prosedurların icrası, xəstə baxımı, dərman preparatlarından düzgün istifadə və tibb təhsili ilə bağlı dərin biliklər verir. Məzunlar xəstəxanalarda, poliklinikalarda və digər səhiyyə müəssisələrində işləmək üçün lazımlı təcrübə və bacarıqlarla təmin olunacaqlar

Bu ixtisasların açılmasında məqsəd, müasir əmək bazarının tələblərinə cavab verməkdir. İxtisasların həm yerli, həm də beynəlxalq akkreditasiyadan keçməsi planlaşdırılır, bu da tələbələrə qlobal səviyyədə tanınan diplomla təmin edəcək və onların beynəlxalq əmək bazarında rəqabət qabiliyyətini artıracaq.




# MƏZUNLARLA İŞ

Naxçıvan Dövlət Universitetini 2023-2024-cü tədris ilində uğurla bitirən 2188 nəfər məzunla, universitet tarixində ən çox məzun sayı qeydə alınmışdır. Məzunlarımız, yüksək akademik göstəriciləri və geniş bilikləri sayəsində xarici ölkələrin tanınmış ali təhsil müəssisələrinə qəbul almışlar. Bu uğurlar, universitetin beynəlxalq tanınırlığını genişləndirərək, tələbələrin qlobal səviyyədə tanınmasına şərait yaradır. Məzunlarımızın əldə etdiyi bu nailiyyətlər, Naxçıvan Dövlət Universitetinin təhsildə müasir yanaşmalarını və yüksək standartlarını bir daha sübut edir.

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİ 2023-2024-CÜ TƏDRİS İLİNDƏ BİTİRMİŞ VƏ XARİCİ ÖLKƏ ALİ MƏKTƏBLƏRİNƏ QƏBUL OLMUŞ MƏZUNLAR HAQQINDA MƏLUMAT**

| № | Soyad, Ad, Ata adı | İxtisas | Magistr üzrə qəbul olduğu ixtisas |
|---|---|---|---|
| 1 | Məmmədov Daşqın Mehdi oğlu | İnformasiya texnologiyaları | Polşa,Vistula Universiteti |
| 2 | Əzizadə Azad Bəkir oğlu | İnformasiya texnologiyaları | Polşa,Vistula Universiteti |
| 3 | Hüseynli Mətləb İsfəndiyar oğlu | Energetika mühəndisliyi | Polşa,Vistula Universiteti |
| 4 | Ələkbərli Novruz Firdovsi oğlu | Energetika mühəndisliyi | Türkiyə, Əskişəhir Anadolu Universiteti |

| | | | |
|---|---|---|---|
| 5 | Qurbanov Elcan Nazim oğlu | Turizm işinin təşkili | Türkiyə, İstanbul Universiteti |
| 6 | Qurbanov Ramil Emil oğlu | Mühasibat | İtaliya, Roma Sapienze Universiteti |
| 7 | Cəfərov Elsun Əli oğlu | Marketinq | Türkiyə, İstanbul Gedik Universitesi |
| 8 | Babayev Rəmzi Lazım oğlu | İqtisadiyyat (tədrisi ingilis dilində) | Macarıstan, Budapeşt Biznes Universiteti |
| 9 | Baxışov Elgin Elçin oğlu | İqtisadiyyat (tədrisi ingilis dilində) | Polşa, Varşava Universiteti |
| 10 | İsmayıllı Məmmədəli Səbanur oğlu | İqtisadiyyat (tədrisi ingilis dilində) | Polşa, Qdansk Universiteti |
| 11 | Salmanlı Kərim Vidadi oğlu | İqtisadiyyat (tədrisi ingilis dilində) | Polşa,Vistula Universiteti |
| 12 | Məmmədli Nicat Məmməd oğlu | İqtisadiyyat | ABŞ, Arizona Fəlsəfə Universiteti |
| 13 | Cəfərova Nuray İlham qızı | Mühasibat | Macarıstan, Budapeşt Texnologiya və İqtisadiyyat Universiteti |
| 14 | Əliyev Cavanşir Seymur oğlu | Marketinq | Türkiyə, İstanbul Gedik Universiteti |
| 15 | Paşayev Şahin Səyyaz oğlu | İqtisadiyyat | Polşa,Vistula Universiteti |

| | | | |
|---|---|---|---|
| 16 | Abdullayev Tayfun Əhməd oğlu | Marketinq | Türkiyə, İstanbul Gedik Universiteti |
| 17 | Quliyev İlqar İman oğlu | Mühasibat | Macarıstan, Budapeşt Biznes Universiteti |
| 18 | Mahmudov Aydın Şahin oğlu | İqtisadiyyat | Polşa,Vistula Universiteti |
| 19 | Nəcəfli Rza Qələbə oğlu | Menecment | Polşa,Vistula Universiteti |
| 20 | Rzalı Həbibə Bəxtiyar qızı | Tərcümə (İngilis-Azərbaycan dilləri) | Polşa, Varşava Universiteti |
| 21 | Muradlı Aygün Araz qızı | Xarici dil müəllimliyi - İngilis dili | Polşa |
| 22 | Bəylərli Nərmin Hafiz qızı | Xarici dil müəllimliyi - İngilis dili | Polşa |
| 23 | İsmayılov Sərdar Elçin oğlu | İqtisadiyyat (tədrisi ingilis dilində) | Türkiyə, Karadeniz Texnik Universiteti |






# DÖVLƏT PROQRAMININ İCRASI

**Tibb (ingilis dilində):**

2024-2025-ci tədris ilindən etibarən Naxçıvan Dövlət Universitetində Tibb (ingilis dilində) ixtisasının tədrisinə başlanmışdır. Bu ixtisas, universitetin beynəlxalq standartlara uyğun, keyfiyyətli tibbi təhsil vermə hədəfinin bir göstəricisidir. Tədrisin ingilis dilində aparılması tələbələrə beynəlxalq tibbi resurslara daha geniş çıxış imkanı yaradaraq, onların qlobal tibbi biliklərə yiyələnməsinə şərait yaradır.

Bu ixtisasın tətbiqi Azərbaycanda tibb təhsili üçün mühüm əhəmiyyət kəsb edir. Tələbələrin beynəlxalq səviyyədə rəqabət apara biləcək bilik və bacarıqlar əldə etməsi ilə yanaşı, xaricdə təcrübə keçmək və iş imkanları da genişlənəcəkdir. Bununla yanaşı, ingilis dilində tədris regionda tibbi xidmətlərin keyfiyyətini artırmağa və yerli səhiyyə sistemini gücləndirməyə töhfə verəcəkdir.

Naxçıvan Dövlət Universitetində bu ixtisasın açılması universitetin qlobal təhsil mühitindəki mövqeyini daha da möhkəmləndirir. Proqram tələbələrə nəzəri biliklərlə yanaşı, praktik bacarıqları da mənimsəmə imkanı verir. Tələbələr beynəlxalq təcrübəni öyrənərək, dünyada qəbul olunan metodları və prosedurları tətbiq edəcəklər ki, bu da universitetin nüfuzunu artıracaq və səhiyyə sahəsində mühüm irəliləyişlərə səbəb olacaq.









**SABAH qrupları:**

Naxçıvan Dövlət Universitetində ilk dəfə olaraq Tibb ixtisası üzrə SABAH qruplarının açılması, universitetin təhsil keyfiyyətini daha da yüksəltmək istiqamətində atılmış mühüm addımlardan biridir. SABAH qruplarının yaradılması, tibb təhsili sahəsində müasir və peşəkar kadrların hazırlanması üçün geniş imkanlar yaradır. Bu qrupların əsas məqsədləri sırasında tələbələrə daha yüksək səviyyədə bilik və bacarıqlar qazandırmaq, təhsil prosesində yenilikçi yanaşmaları tətbiq etmək, və ən son tibbi texnologiyalarla təchiz edilmiş yeni tədris korpusunun istifadəyə verilməsi xüsusi yer tutur.

SABAH qrupları, Azərbaycan ali təhsil sisteminə dünya təcrübəsini gətirərək, tələbələrin daha rəqabətcil və hazırlıqlı mütəxəssislər kimi yetişməsinə imkan yaradır. Bu qruplarda təhsil alan tələbələr, ən yüksək səviyyədə akademik göstəricilərə nail olmaqla yanaşı, təcrübə keçmək üçün geniş resurslara da çıxış əldə edirlər. Gələcək həkimlər bu müasir təhsil modelinin tərkib hissəsi olaraq, beynəlxalq standartlara cavab verən tibbi bilik və bacarıqlara yiyələnir, həmçinin real iş şəraitində istifadə oluna biləcək müasir texnologiyaları mənimsəyirlər.

Bu təşəbbüs, Naxçıvan Dövlət Universitetinin tibbi təhsil sahəsindəki potensialını gücləndirməklə yanaşı, regionda səhiyyə xidmətlərinin keyfiyyətini də artırmağa töhfə verəcək. Xüsusilə, 2023-2024-cü tədris ilində universitetin tarixində ən çox məzun verdiyi il olaraq, bu uğur təhsildə keyfiyyətin davamlı olaraq yüksəldiyini göstərir. SABAH qrupları tibb təhsili sahəsində universitetin gələcək inkişafının təməlini qoyaraq, tələbələrin beynəlxalq səviyyədə rəqabət apara biləcək peşəkarlar kimi yetişməsinə şərait yaradır.


CAMBRIDGE
International Education

Certificate of Registration

This is to certify that

NSU International School

has registered as a

Cambridge International School

Rod Smith
Group Managing Director, International Education
Cambridge University Press & Assessment

REGISTERED SCHOOL [illegible]
ISSUED ON 22 JULY 2024

Cambridge Pathway

Ready for the world




**Beynəlxalq Kembric Məktəbi:**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncamında vurğulanan mühüm məsələlərdən biri də Naxçıvan Dövlət Universitetinin nəzdində İngilisdilli orta məktəbin yaradılması olub. Bu təşəbbüs, regionun təhsil sisteminə yeni və müasir yanaşmalar gətirərək, beynəlxalq səviyyədə tanınan tədris standartlarının tətbiq olunmasını nəzərdə tutur. Bu istiqamətdə görülən işlərin nəticəsi olaraq, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbinə 2024-cü ilin sentyabr ayından etibarən 1-ci və 6-cı siniflər üçün Kembric Beynəlxalq Təhsil Proqramı üzrə tədrisin həyata keçirilməsi üçün beynəlxalq lisenziya verilib. Kembric proqramı dünyada tanınmış və yüksək nüfuzlu tədris sistemlərindən biridir.

Bu proqramın tətbiqi, universitetin beynəlxalq təhsil məkanında yerini möhkəmləndirməklə yanaşı, tələbələrə qlobal səviyyədə tanınan bir təhsil almaq imkanı yaradır. Kembric məktəbinin açılması yalnız ingilis dilində yüksək keyfiyyətli təhsilin verilməsinə şərait yaratmır, eyni zamanda, şagirdlərə müasir dünyada uğur qazanmaq üçün lazım olan bilik və bacarıqları qazandırır. Kembric Beynəlxalq Təhsil Proqramı vasitəsilə təhsil alan tələbələr, dünya miqyasında qəbul edilən diplomlarla bir çox tanınmış universitetlərə qəbul ola biləcəklər. Bununla yanaşı, məktəb məzunları ingilis dili ilə yanaşı digər beynəlxalq dillərdə də yüksək səviyyədə hazırlıq keçmiş olacaqlar.

Bu yenilik, universitetin 2023-2024-cü tədris ilində tarixində ən çox məzun sayına çatdığı dövrə təsadüf edir və təhsil sistemində yeni bir mərhələnin başlanğıcı kimi qəbul olunur. Kembric məktəbinin açılması, Naxçıvan Dövlət Universitetində təhsilin keyfiyyətini daha da artıraraq, tələbələrin gələcək karyeralarında beynəlxalq səviyyədə rəqabət apara biləcək bilik və bacarıqlarla silahlanmalarına şərait yaradacaq. Bu, regionun təhsil potensialının inkişafında mühüm addımlardan biri kimi qəbul edilir və təhsildə yeni üfüqlərə qapı açır.

İngilis dili Təmayüllü Gimnaziya:

Gimnaziya: Naxçıvanda ilk dəfə olaraq, Naxçıvan Dövlət Universiteti nəzdində yaradılan Beynəlxalq Gimnaziya Kembric (Cambridge) Beynəlxalq Məktəbi statusunu əldə etmişdir. 2024-cü ilin sentyabr ayından etibarən 1-ci və 6-cı siniflərdə Kembric Beynəlxalq Təhsil Proqramı üzrə tədris həyata keçiriləcəkdir. Bu beynəlxalq lisenziyanın alınması, Naxçıvanda qlobal tədris standartlarının tətbiqinə önəmli bir addımdır. Kembric proqramı dünya miqyasında tanınmış, yüksək akademik tələblərə malik tədris sistemidir.

Bu yenilik, şagirdlərə dünya səviyyəsində tanınan sertifikatlar almaq imkanı yaradacaq və onların analitik düşünmə qabiliyyətini inkişaf etdirməyə yönəlib. Tədris tamamilə ingilis dilində aparılacaq və şagirdlər qlobal təhsil standartlarına uyğun bilik əldə edəcəklər. Bu isə onların dünya universitetlərinə qəbul olunma şanslarını artıracaq və beynəlxalq mütəxəssislər kimi yetişmələrinə şərait yaradacaq.

Beynəlxalq Gimnaziyanın yaradılması, Naxçıvan Dövlət Universitetinin təhsildə modernləşmə strategiyasının bir hissəsidir. Gimnaziyanın fəaliyyətə başlaması regionda təhsil səviyyəsinin yüksəlməsinə və yerli intellektual inkişafın gücləndirilməsinə töhfə verəcəkdir.







# ƏCNƏBİ MÜƏLLİMLƏR

**Naxçıvan Dövlət Universitetində 2023-2024-cü Tədris İlində Təlim, Tədris və Tədqiqat Fəaliyyətlərinə Cəlb Edilmiş Əcnəbi Müəllimlərimiz**

2023-2024-cü tədris ilində Naxçıvan Dövlət Universitetində təlim, tədris və tədqiqat fəaliyyətlərinə cəlb edilmiş əcnəbi müəllimlərimizin rolu mühümdür. Dünyanın müxtəlif ölkələrindən 8 nəfər professor universitetimizdə fəaliyyət göstərmişdir. Əcnəbi müəllimlər universitetimizin kadr potensialının inkişafına, xarici təcrübənin öyrənilməsi və tədqiqatların artırılmasına, tədris prosesində qabaqcıl təlim metodlarının tətbiqi ilə yanaşı, universitetlər arasında akademik əməkdaşlığın gücləndirilməsinə xüsusi töhfə vermişdirlər.





### PROF. DR. XƏLİL KƏLƏNTƏR

Yaponiya vətəndaşı professor Xəlil Kələntər universitetinin Fizika-riyaziyyat və Kompüter mühəndisliyi fakültələrində təhsil alan magistr və doktorantlara tədqiqat bacarıqlarının inkişafı üçün təlimlər və ustad dərsləri təşkil etmiş, eyni zamanda, universitetin professor/müəllim heyəti üçün “Patentə gedən yol” başlıqlı təlimlər təşkil etmişdir. Naxçıvan Dövlət Universitetinin müxtəlif kafedralarından olan 13 nəfər tədqiqatçı ilə elmi tədqiqat qrupu yaradılmış və alimlə birlikdə tədqiqat işlərinin icrasına başlanmışdır.

Professor universitetdə olduğu müddətdə “Planar və non-planar ekranların on/off-ekrana metrologiyası üçün ölçmə sahəsi konturunu təyin etmək” mövzusunda tədqiqat aparmış və tədqiqatın nəticələri elmi məqalə kimi Yaponiyanın nüfuzlu elmi jurnalında çap edilmişdir. Professor yalnız Yaponiyada deyil, Amerika, Asiya və Avropada elektronika, yeni nəsil displey ekranlar sahəsində böyük mütəxəssis kimi tanınır və LCD texnologiyası üzrə yapon dilində 6 kitab, 130-dan artıq elmi məqalə, 100-ə yaxın patent müəllifidir.





### PROF. DR. ERKUT ATTAR

Türkiyə Respublikası Yeditepe Universitetinin Tibb fakültəsinin Qadın xəstəlikləri və doğum kafedrasının müdiri professor Erkut Attar universitetin Tibb Fakültəsində Mama-ginekologiya fənni üzrə seminar/mühazirələr aparmış və Mama-ginekologiya sahəsində fakültənin aid kafedrasının müəllim heyəti və tələbələr üçün təlimlər təşkil etmişdir.



## PROF. DR. CENGİZ ARA

Türkiyə Respublikası İnönü Universitetinin Tibb fakültəsi, Ümumi cərrahiyə kafedrasının professoru Cengiz Ara Naxçıvan Dövlət Universiteti Tibb fakültəsində Daxili xəstəliklər fənni üzrə müvafiq ixtisas qruplarında mühazirə oxumuş və praktiki məşğələlər keçmişdir. Professor Cengiz Ara aidiyyatı ixtisas üzrə fakültənin müxtəlif kafedralarının müəllim heyəti üçün daxili xəstəliklər və qaraciyər transplantasiyası mövzularında təlimlər təşkil etmişdir.





## PROF. DR. RÜYA ŞAMLI

Türkiyə Respublikası İstanbul Universiteti Cərrahpaşada Kompüter mühəndisliyi kafedrasının Yazılım mühəndisliyi və süni intellekt sahəsi üzrə professoru Rüya Şamlı Web Proqramlaşdırma, Web Sistemləri və Texnologiyaları, Süni İntellekt fənləri üzrə müvafiq ixtisas qruplarında mühazirə oxumuş və praktiki məşğələlər aparmışdır.





## PROF. DR. MEHMET UĞUR

Türkiyə Respublikası Qaradəniz Texnik Universitetinin Diş həkimliyi fakültəsinin “Protetik diş müalicəsi kafedrası”nın dosenti Mehmet Uğur Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin müvafiq ixtisas qruplarında mühazirə oxumuş və praktiki məşğələlər aparmışdır. Dos. Mehmet Uğur həmçinin aidiyyəti üzrə tədqiqatlar aparmaqda, fakültənin müxtəlif kafedralarının müəllim heyəti üçün “Protetik diş müalicəsi” mövzularında təlimlər təşkil etməkdədir.





**PROF. DR. İLYAS YOLBAŞ**



Türkiyə Respublikası Dicle Universitetinin Tibb fakültəsi Uşaq sağlığı və xəstəlikləri kafedrasının professoru İlyas Yolbaş universitetin Tibb fakültəsində “Uşaq Xəstəlikləri” fənnindən seminar və mühazirələr aparmış, aidiyyatı ixtisas üzrə fakültənin müxtəlif kafedralarının müəllim heyəti üçün təlimlər təşkil etmişdir. İlyas Yolbaş həmçinin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən “Azərbaycan və Türkiyə pediatrlarının Naxçıvan I Pediatriya” simpoziumunun təşkil edilməsinə rəhbərlik etmişdir.



**Tədris prosesi zamanı əcnəbi müəllimlərin qiymətləndirilməsi sorğusu aparılmış və ümumilikdə 127 cavab daxil olmuşdur. Sorğu tələbələrin əcnəbi müəllimlərin müxtəlif aspektlər üzrə necə dəyərləndirdiyini öyrənmək məqsədilə keçirilmişdir.**

### 1. Dəyərləndirilən müəllimlər

Respondentlər arasında müəllimlərin adları üzrə bölgü və məmnuniyyət faizləri aşağıdakı kimidir:

- İlyas Yolbaş: 85.3%
- Çingiz Ara: 78.2%
- Erkut Atar: 90.9%
- Mürsel Karabacak: 93.8%
- Rüya Şamlı: 87.9%
- Mehmet Uğur: 94.1%

**2. Müəllim dərs mövzusunu düzgün şəkildə izah edirmi?**

- Bəli: 85.8%
- Xeyr: 11%
- Tam yox: 3.2%

**3. Müəllim dərs saatına ayrılmış vaxtı düzgün idarə edirmi?**

- Dərslərdə vaxtdan səmərəli istifadə edir: 76.2%
- Bəzən dərslərdə vaxtı səmərəli idarə edə bilmir: 14.3%
- Vaxtı idarə etməkdə çətinlik çəkir. Bəzi mövzuları çatdıra bilmir: 9.5%

**4. Müəllim öyrətdiyi fənn üzrə peşəkardırmı?**

- Peşəkardır: 86.6%
- Peşəkar deyil: 9.4%
- Tam deyil: 4%

**5. Müəllim tələbələrin mədəni fərqliliklərini anlayır və onlara hörmət edirmi?**

- Bəli: 93.7%
- Xeyr: 6.3%

Digər suallara cavab olaraq isə tələbələr öz şəxsi fikirlərini qeyd ediblər.

Ümumilikdə sorğunun nəticələri göstərir ki, tələbələr dəvət edilmiş əcnəbi müəllimləri yüksək qiymətləndirir, xüsusilə onların dərs mövzusunu izah etmə bacarığı, dərs saatını idarə etmə qabiliyyəti və peşəkarlıq səviyyələri ilə bağlı məmnunluqlarını ifadə etmişdirlər. Müəllimlərin mədəni fərqliliklərini anlamaq və hörmət etmək qabiliyyətləri də tələbələr tərəfindən yüksək qiymətləndirilmişdir.




















# TƏLİMLƏR

**2023-2024-cü tədris ilində Naxçıvan Dövlət Universitetində müxtəlif mövzularda bir sıra təlimlər keçirilib. Bu təlimlər universitetin müəllim, tələbə və elmi işçilərinin bilik və bacarıqlarını artırmaq, elmi-tədqiqat fəaliyyətlərini gücləndirmək məqsədilə təşkil olunub. Məqsəd qoyulmuş hədəf kütlə uğurla təlimlərə cəlb edilmişdir. Aşağıda bu dövr ərzində keçirilmiş əsas təlimlərdən bəzilərinin adları verilmişdir:**

1. Sənaye mülkiyyəti obyektlərinin əsas istiqamətləri- Naxçıvan Dövlət Universitetində ixtira, faydalı model və sənaye nümunələrinin hazırlanması və qeydiyyata alınması ilə əlaqədar təlim.

2. Jurnal seçimi və məqalələrin təqdim edilməsi- Naxçıvan Dövlət Universiteti və İKSAD-ın birgə təşkilatçılığı ilə keçirilən jurnal seçimi, məqalələrin təqdim edilməsi, layihə və qrantların yazı qaydaları mövzularında beynəlxalq təlim.

3. Cyber Bootcamp- Azerconnect security architect Xaliq Əsədovun təqdimatında “Cloud and cloud security” mövzusunda təlim.

4. Akademik yazı qaydaları, elmi tədqiqat metodları- Magistratura və doktorantura mərkəzi və Texnoloji transfer və innovasiyalar bölməsinin birgə təşkil etdiyi təlim.

5. Bankların prudensial idarəetməsi- Mərkəzi Bankının Naxçıvan MR İdarəsi və “Beynəlxalq Konsaltinq Şirkəti”nin birgə təşkilatçılığı ilə keçirilən maliyyə savadlılığı təlimi.

6. Xaricdə təhsil təcrübəsi- İtaliyanın Siena Universitetində “Diplomatiya” ixtisası üzrə magistr təhsili alan Ləman Ələkbərovanın təlimi.

7. Yazılı tərcümə fənninin tədrisinə verilən tələblər- ADU-nun German dillərinin tərcümə nəzəriyyəsi və praktikası kafedrasının baş müəllimi Güllü Bayramova və Roman dillərinin tərcümə nəzəriyyəsi və praktikası kafedrasının baş müəllimi Dilşad Pənahovanın təqdimatında keçirilən təlim.

8. Beynəlxalq elektron ticarət- Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru, “Azexport” portalının rəhbəri Ayxan Qədəşov tərəfindən keçirilən təlim.

9. Logistika və təchizat zəncirinin idarə edilməsi- Interchim Limited şirkətinin neft məhsulları üzrə Təchizat zənciri rəhbəri Şəhla Ramazanova tərəfindən keçirilən təlim.

10. Tərcümə təcrübəsi- ADU-nun əməkdaşları tərəfindən NDU-nun Xarici dillər fakültəsində keçirilən təlim.

11. Layihə və qrantların yazı qaydaları- jurnal seçimi, məqalələrin təqdim edilməsi, layihə və qrantların yazı qaydaları haqqında keçirilən təlim.

12. IBM Mərkəzinin yaradılması- Fransa Respublikası vətəndaşı, IBM-in universitetlər üzrə əlaqələndirici şəxsi Hayri Sayı tərəfindən dizayn həlləri, süni zəka, proqram mühəndisliyi mövzularında bir həftə müddətində təşkil edilən təlim.

13. Naxçıvan Dövlət Universitetində Alman Akademik Mübadilə Xidmətinin (DAAD), Alman Dili Tədrisi Mərkəzinin və Gothe İnstitutunun əməkdaşları tərəfindən keçirilən təlim.

14. Tələbəyönümlü təhsil, öyrənmə və qiymətləndirmə - Professor/müəllim heyəti üçün ESG standartlarının tələbləri, təhsildə yeni yanaşmaların tətbiqinə dair təlim



















# ƏZİZ SƏNCƏR NDU-DA!

**İyunun 1-də dünyaşöhrətli alim, ABŞ-nin Şimali Karolina Universitetinin Biokimya və biofizika fakültəsinin professoru, kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncər ilə Naxçıvan Dövlət Universitetində görüş keçirilmişdir**

**“Mən söz vermişdim ki, qələbədən sonra Şuşaya gedib namaz qılacağam. Çox şükür ki, bu arzumu yerinə yetirə bildim”.** Bu sözləri Naxçıvan Dövlət Universitetində tələbələrlə görüşdə professor Əziz Səncər deyib.

**“44 günlük Qarabağ savaşını yaxından izləyirdim. 44 gün heç bir işlə məşğul olmadım. Bütün günü kompüter arxasında xəbər saytlarını, sosial media hesablarını və televiziyaları izləyirdim.”**

**“Mənim üçün Qarabağ zəfəri Türkiyənin qurtuluş savaşından sonra Türk dünyasının ən böyük zəfəridir”**, - Əziz Səncər bildirib.



Naxçıvan Dövlət Universiteti Türk dünyasının məşhur alimi, Nobel mükafatçısı Əziz Səncəri qəbul edib. Rektor Elbrus İsayev görüşü ali təhsil ocağının tarixində əlamətdar hadisə kimi dəyərləndirərək, Əziz Səncərin Qarabağ zəfərini Türk xalqının böyük qələbəsi kimi qiymətləndirdiyini vurğulayıb.

Əziz Səncər çıxışında Azərbaycana olan sevgisini və Türk dünyasının birliyinə dair arzularını ifadə edib. Görüşdə Əziz Səncər adına tələbə təqaüdü təqdim olunub, və ona Qarabağ zəfərinə həsr olunmuş medalyon təqdim edilib.

Görüşdə, həmçinin, AMEA-nın prezidenti İsa Həbibbəyli və Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya da iştirak edib.



















# BEYNƏLXALQ ƏLAQƏLƏR

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamına əsasən Naxçıvan Dövlət Universiteti ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili məqsədilə bir sıra səfərlər həyata keçirilmişdir





Naxçıvan Dövlət Universiteti ilə Polşanın Jeşuv Universiteti arasında qarşılıqlı əlaqələr qurulmuşdur.  Universitetinin rektoru Elbrus İsayev və rektor müşaviri Rəcəb Cəfərli Polşada işgüzar səfərdə olmuş, səfər zamanı Polşanın Jeşuv Universitetində görüşlər keçirilmişdir. Görüşdən əvvəl Jeşuv Universitetinin Texnoparkı, Nanotexnologiya və Biotexnologiya mərkəzləri ilə tanışlıq olmuşdur. Azərbaycan Respublikasının Polşa Respublikasındakı səfiri Nərgiz Qurbanovanın iştirak etdiyi görüşdə bir sıra mühüm razılaşmalar əldə edilmişdir:

- Universitetlər arasında tədris informasiya texnologiyaları ilə bağlı Tibb ixtisasında təhsil sahəsinin dəyişməsi və rezidentlərin 3-6 aylıq rotasiyalarının təşkili;
- Xarici dillər fakültəsi ilə dilçilik sahəsində birgə konfransın aparılması;
- Jeşuv Universiteti ilə Naxçıvan Dövlət Universitetinin elmi kitabxanaları arasında ikili münasibətlərin qurulması;

- Hər iki ali təhsil müəssisəsi kitabxanalarının elmi bazasından tələbə və müəllimlərin istifadəsi;
- Ortaq beynəlxalq layihələrin hazırlanması;

Erasmus+ proqramı üzrə tələbə və müəllim heyətinin mübadiləsi sahələrində razılıq əldə edilmişdir.











Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Macarıstan Parlamentinin vitse-spikeri Şandor Lezsak İlə görüşmüşdür. Səfiri Tahir Tağızadənin də iştirak etdiyi görüşdə, Macarıstan universitetləri ilə əməkdaşlıq məsələləri barəsində Macarıstan Parlamentinin vitse-spikeri Sandor Lezsaka məlumat verilmiş və həmin görüşlərin səmərəliliyi müzakirə edilmişdir. Əsasən John von Neumann Universiteti ilə əlaqələrin inkişafı sahəsində fikir mübadiləsi aparılmışdır.




Naxçıvan Dövlət Universiteti rektorunun Finlandiyada İşgüzar Səfəri və Əməkdaşlıq Razılaşmaları

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və rektor müşaviri (strateji məsələlər üzrə) Rəcəb Cəfərli Finlandiyada işgüzar səfərdə olmuşdur. Səfər zamanı, Azərbaycanın İsveçdəki səfiri Zaur Əhmədovun dəstəyi ilə Helsinki Universitetində və Metropolia Universitetində bir sıra görüşlər keçirilmişdir.

Görüşlərdə universitetlər arasında qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Əsas razılaşmalar aşağıdakılardır:

1. Helsinki Universiteti ilə əməkdaşlıq:

- Süni intellekt və proqramlaşdırma sahəsində əməkdaşlıq;
- Sənaye əlaqələrinin təkmilləşdirilməsi;
- Birgə tədqiqatların aparılması;
- Akademik heyətin mübadiləsi;
- Onlayn təlimlərin keçirilməsi.

Helsinki Universiteti, dünya universitetləri sıralamasında 70-ci yerdə qərarlaşan, Finlandiyanın ən öndə gedən ali təhsil müəssisəsidir və 1640-cı ildən fəaliyyət göstərir. Universitet, Avropanın aparıcı tədqiqat universitetləri ilə əməkdaşlıq edən Avropa Tədqiqat Universitetləri Liqasının üzvüdür və müxtəlif qitələrdəki ali təhsil müəssisələri ilə 80 əməkdaşlıq müqaviləsinə malikdir.

2. Metropolia Universiteti ilə əməkdaşlıq:

- Ortaq konfransların keçirilməsi;
- Tələbə-müəllim mobilliyi;
- Tibb sahəsində birgə tədqiqat mərkəzlərinin yaradılması;
- Tədqiqat qrupunun formalaşdırılması.

Bu razılaşmalar Naxçıvan Dövlət Universitetinin beynəlxalq əməkdaşlıq sahəsində atdığı mühüm addımlardan biridir və universitetin elmi-tədqiqat potensialının genişlənməsinə təkan verəcəkdir.








**Cari ildə Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti Hacettepe, Ankara, Qazi və Ankara Yıldırım Beyazıt Universitetlərində görüşlər keçirmişdir.**

**Hacettepe Universiteti:**

-Bakalavr təhsil səviyyəsində yeni açılan “Tibb bacısı işi” ixtisası müzakirə edilib

-Akademik heyət və tələbə mübadiləsi, kadr təminatı sahəsində dəstəyin verilməsi

-Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Tibb Kollecində yeni ixtisasların açılması

- İkili diplom imkanlarını təmin edən proqramların hazırlanması

- Tədqiqat işlərinin təşviqi, akademik tədqiqat məlumatlarının və texniki materialların mübadiləsi

-Nəşr və ya mədəni fəaliyyətlər sahəsində əməkdaşlıq

-Konfrans, simpozium kimi görüşlərin keçirilməsi

**Ankara Universiteti:** Rektor Elbrus İsayev və nümayəndə heyəti Ankara Universitetinin rektoru Necdet Ünüvar ilə görüşmüşdür. Əməkdaşlıq dövründə 310 nəfərə yaxın tələbə-müəllim heyəti təcrübə keçmiş, tibb təhsili, Big Data mərkəzində praktiki təcrübə və tədris-tədqiqat əməkdaşlığı məsələləri müzakirə olunmuşdur.

**Qazi Universiteti:** Rektor Musa Yıldız ilə görüşdə iki universitet arasındakı əməkdaşlığın inkişafı və tələbə-rezidentlərin staj və rotasiyaları müzakirə edilmişdir.

**Tibb Kampusu Layihəsi:**

-Ankara və Qazi universitetlərinin xəstəxanalarının təcrübələrindən istifadə etməklə yeni Tibb kampusunun layihələndirilməsi müzakirə edilib.
-Tələbələrin Ankara Onkoloji Laboratoriyası, İbn Sina Xəstəxanası və Qazi Xəstəxanasında təcrübə keçməsinin əhəmiyyəti vurğulanıb.

**Ankara Yıldırım Beyazıt Universiteti:**

-Rektor Ali Cengiz Köseoğlu ilə görüşdə əməkdaşlıq memorandumu imzalanıb.
-Memorandum akademik heyət və tələbə mübadiləsi, ortaq tədqiqatlar və birgə konfranslar kimi sahələri əhatə edir.

Görüşlərdə Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı təhsil müşaviri Nəcibə Nəsibova da iştirak edib.






## Beynəlxalq Layihələr

Naxçıvan Dövlət Universitetində Avropa Komissiyası tərəfindən maliyyələşdirilən, Erasmus+ proqramı çərçivəsində 4 irimiqyaslı layihə icra edilməkdədir. Son bir ildə layihələr çərçivəsində universitetin administrativ və akademik heyətindən olan 20 nəfərin bir həftəlik sahə səfərlərində mobilliyi təmin edilmişdir. Sahə səfərləri Türkiyə, İtalya, Finlandiya, İsveç, İspaniya, Polşa, Portuqaliya, Estoniya, Yunanıstan və Fransanın nüfuzlu ali təhsil müəssisələrində təşkil edilmişdir. Layihələrin iş paketlərinə uyğun olaraq bütün fəaliyyətlər icra edilmiş, lazımi avadanlıqlar alınmış və LMQ-S layihəsi çərçivəsində Tibb fakültəsində ustadlıq mərkəzi açılmışdır. Bütün Layihələrə dair məlumatlar mütəmadi olaraq yerli mətbuat vasitələrində və sosial media hesablarında paylaşılmış və hər bir layihəyə dair ətraflı məlumat ayrı ayrılıqda universitetin internet səhifəsində yerləşdirilmişdir.

**ENGAGE –** Universitet-Sənaye əməkdaşlığı ekosisteminin yaradılması və Sahibkarlıq fənninin tədrisinin təkmilləşdirilməsini hədəfləyən layihə çərçivəsində İsveç (KTH), İspaniya (Katoloniya Politexnik), Polşa (Bıdqoş), Portuqaliya (Lisboa), Estoniyada (Taltech) yerləşən universitetlərə səfərlər təşkil edilmiş və bu çərçivədə benchmarking, reflection, travel və financial (müqayisə, əks etdirmə, səyahət və maliyyə) hesabatları hər sahə səfərindən sonra hazırlanmış və koordinator universitetə təhvil verilmişdir. Sahə səfərlərindən sonra Universitetin akademik və administrativ, eləcə də tələbə heyəti üçün retraininglər təşkil edilmiş, öyrənilən yaxşı təcrübələr heyətə çatdırılmışdır. Layihə çərçivəsində 12 əməkdaşımız Avropa təcrübəsi ilə tanış olmuşdur.









**DIRNA –** İnstitusional repazitoriyaların yaradılması, kitabxana işinin təkmilləşdirilməsi məqsədini daşıyan layihə çərçivəsində Türkiyə (İzmir Yüksək Texnologiya İnstitutu), İtaliya (Laquila), Finlandiya (Jvoskola) təşkil edilmiş səfərlərdə sahəsi üzrə 5 əməkdaşımız təlimlərdə iştirak etmiş və aid hesabatlar hazırlanaraq koordinator universitetə təhvil verilmişdir. Layihə çərçivəsində Gəncə Dövlət Universitetində təşkil edilmiş Yay məktəbində universitetin 3 əməkdaşının iştirakı təmin edilmişdir.










**LMQS -** Səhiyyədə risklərin idarəedilməsi strateji keyfiyyət menecmenti bakalavr və ya magistr ixtisasının açılması məqsədini daşıyan layihə çərçivəsində Qazağıstan, Yunanıstan və Fransadan olan tərəfdaş universitetlərin Naxçıvan səfəri təşkil edilmiş və universitetimizdə ustadlıq mərkəzinin avadanlıqlarla təmin edilərək açılışı olmuşdur. Layihə çərçivəsində Yunanıstanın Qərbi Attika və Fransanın Cote de Azur Universitetlərinə səfərlər təşkil edilmişdir. Sahə səfərlərində universitetin 3 əməkdaşının iştirakı təmin edilmişdir. MBA (Biznesin təşkili və idarəedilməsi – səhiyyənin idarəedilməsi) ixtisası açılmışdır. Layihənin Pedaqoji, Maliyyə və Dissemination hesabatları hazırlanaraq koordinator universitetə təqdim edilmişdir.








**IQAinAR** - Daxili keyfiyyət təminatı sistemlərinin inkişaf etdirilməsi məqsədini daşıyan layihə çərçivəsində İspaniya (Mursiya) və Hollandiyada (Uittenberq tətbiqi elmlər) təşkil edilmiş sahə səfərlərində 9 əməkdaşımız iştirak etmişdir. Uittenberq universiteti ilə KA1- mobillik çərçivəsində tələbə və müəllim heyətinin mübadiləsinin həyata keçirilməsi razılaşdırılmışdır. Azərbaycanda Regional Universitetlərdə Daxili keyfiyyət təminatı sistemi adı ilə tədqiqat aparılmış və SCOPUS indeksli jurnalda çap edilməsi üçün koordinator universitetə təqdim edilmişdir.

















# IELTS VƏ SAT MƏRKƏZLƏRİ

Naxçıvan Dövlət Universitetinin Xarici Dillər Fakültəsində fəaliyyət göstərən IELTS qeydiyyat və imtahan mərkəzində müxtəlif formatlarda bir sıra imtahanlar həyata keçirilmişdir. IELTS mərkəzinin davamlı fəaliyyəti, universitetin yüksək keyfiyyətli təhsil xidmətləri təqdim etmək və beynəlxalq müstəvidə tanınmaq məqsədini güdür.

**2022-2024-cü illərdə mərkəzdə keçirilmiş IELTS imtahanlarının statistikası aşağıdakı kimidir:**

- İyun 2022: 25 nəfər (paper-based)
- İyun 2022: 85 nəfər (computer-delivered)
- Dekabr 2022: 17 nəfər (computer-delivered)
- Fevral 2024: 39 nəfər (computer-delivered)
- İyun 2024: 49 nəfər (40 nəfər universitet hesabına imtahana daxil olmuşdur)

Bu imtahanlar, universitetin akademik heyətinə və tələbələrə beynəlxalq standartlarda dil sertifikatları əldə etmək imkanı yaratmaq məqsədi daşıyır. IELTS mərkəzinin fəaliyyəti, NDU-nun yüksək keyfiyyətli təhsil xidmətləri təqdim etmə və beynəlxalq səviyyədə tanınma istiqamətində atdığı mühüm addımlardan biridir. Universitet, tələbələrin qlobal əmək bazarına uyğunlaşması və akademik mühitin beynəlxalq standartlara uyğunlaşdırılması üçün belə təşəbbüsləri davam etdirir.









## Naxçıvan Dövlət Universitetində IELTS İmtahanlarının 2022-2024-cü illər üzrə Statistik Paylanması



## Naxçıvan Dövlət Universitetinin SAT Mərkəzi

Naxçıvan Dövlət Universiteti, SAT imtahan mərkəzi kimi fəaliyyət göstərən ilk dövlət ali təhsil müəssisəsidir. 14 iyun 2023-cü ildə Amerika Birləşmiş Ştatlarının College Board təşkilatı tərəfindən rəsmi olaraq qeydiyyata alınmış SAT mərkəzi, həm universitetin, həm də ümumilikdə regionun şagirdlərinə beynəlxalq səviyyədə tanınan imtahan vermək imkanı tanıyır.

**SAT mərkəzi aşağıdakı xidmətləri təklif edir:**

- Dijital SAT imtahanı üçün onlayn qeydiyyat aparmaq;
- İmtahan mərkəzi kimi fəaliyyət göstərmək;
- SAT konsultasiya və hazırlıq xidmətləri təqdim etmək.













Mərkəzdə Koordinator, köməkçi koordinator, Proktor, texniki mütəxəssis və zal nəzarətçisi fəaliyyət göstərir. 2023-2024-cü tədris ili ərzində keçirilən 6 əsas və 2 əlavə SAT imtahanında ümumilikdə 172 şagird iştirak etmişdir:

**1) 5 oktyabr 2023 – 11 şagird**
**2) 2 dekabr 2023 – 26 şagird**
**3) 9 mart 2024 – 34 şagird**
**4) 16 mart 2024 – 1 şagird (makeup test)**
**5) 4 may 2024 – 24 şagird**
**6) 1 iyun 2024 – 53 şagird**
**7) 24 avqust – 24 şagird**
**8) 7 sentyabr – 1 şagird (makeup test)**

İmtahanlarda əsasən Naxçıvan MR və Bakı şəhərindəki müxtəlif məktəblərin şagirdləri iştirak etmişdir. Bundan əlavə, Türkiyə və İran vətəndaşı olan şagirdlər də imtahan verənlər arasında olmuşdur.





# NDU NƏZDİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ

Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələri tədris prosesini uğurla davam etdirir və müxtəlif sahələrdə əhəmiyyətli tədbirlər həyata keçirir. Bu müəssisələr arasında İngilis dili Təmayüllü Gimnaziya, Naxçıvan Dövlət Texniki Kolleci, Naxçıvan Tibb Kolleci və Naxçıvan Musiqi Kolleci yer alır.

**2. Naxçıvan Musiqi Kolleci:**
2023-cü tədris ilində Naxçıvan Musiqi Kollecində ümumilikdə 128 tədbir keçirilmişdir. Bu tədbirlər arasında ustad dərslər, konsertlər, açıq dərslər və digər fəaliyyətlər yer almışdır.

**3. Naxçıvan Tibb Kolleci:**
2024-cü ildə Naxçıvan Tibb Kolleci bir sıra maarifləndirici və sosial tədbirlər keçirmişdir. 2023-2024-cü tədris ilində kollec 90 müəllimlə fəaliyyət göstərmişdir ki, onlardan 5-i Naxçıvan Muxtar Respublikasının və ya Azərbaycan Respublikasının Əməkdar müəllim və ya həkimi adını daşıyır.

**4. Naxçıvan Dövlət Texniki Kolleci:**
Texniki Kollec, texniki təhsilin inkişafına xüsusi diqqət yetirir. Tədris ili ərzində kollec tərəfindən çoxsaylı texniki seminarlar və praktiki məşğələlər təşkil olunmuşdur. Kollec, tələbələrin texniki bilik və bacarıqlarının inkişafı üçün müasir təlim metodları və avadanlıqlardan istifadə edir.

2023-2024-cü tədris ilində Naxçıvan Dövlət Universitetinin İngilis dili Təmayüllü Gimnaziyasında ümumi orta təhsil səviyyəsində keçirilən buraxılış imtahanlarında 60 şagird iştirak etmişdir. Onlardan 52 nəfəri 220-300 intervalında bal toplayaraq yüksək nəticələr əldə etmişdir. Hər üç fəndən (Azərbaycan dili, Riyaziyyat, İngilis dili) 75 bal toplayan 30 şagird fərqlənmə attestatına layiq görülmüşdür. Bu göstərici əvvəlki tədris ili ilə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır, belə ki, 2022-2023-cü tədris ilində fərqlənmə attestatı alan şagirdlərin sayı 11 nəfər idi.

Rektor Elbrus İsayev bu uğurlu nəticələri gimnaziyanın artan təhsil keyfiyyəti ilə əlaqələndirmiş, NDU-nun Beynəlxalq Məktəbinin Kembric Məktəbi statusu almasının, ingilisdilli kadrların hazırlanmasında önəmli rol oynayacağını vurğulamışdır. Tədbirin sonunda yüksək nəticə göstərən şagirdlərə fərqlənmə attestatları təqdim olunmuşdur.




























MUSİQİ MəKTəBİ








# BEYNƏLXALQ REYTİNQ ŞIRKƏTLƏRİ İLƏ ƏMƏKDAŞLIQ

Universitetin QS və THE beynəlxalq reytinqlərində iştirakının təmin edilməsi üçün işlər icra edilməkdədir. THE dayanıqlı inkişaf reytinqində lazımi məlumatlar portal üzərindən daxil edilmiş və 2023-cü illə müqayisədə topladığımız bal 39 dan 42-ə qalxmışdır. QS dayanıqlı inkişaf reytinqində yer almaq üçün 17 SDG üzrə siyasətlər və buna uyğun fəaliyyət planı hazırlanmışdır.

"QS hub"da məlumatlar doldurulmuşdur. Bunun üçün NSU sustainability veb səhifəsi hazırlanmış və bütün gərəkli siyasətlər, fəaliyyətlər və hesabatlar səhifədə yerləşdirilmişdir. Tələbələr arasında Dayanıqlı İnkişaf Məqsədlərinin yayılması üçün SDG tələbə klubu yaradılmış, Ağbulaq İstirahət mərkəzində 2 günlük tələbə düşərgəsi təşkil edilmiş və sosial media hesabları açılmışdır. QS DİM üzrə nəticələrin COP29 çərçivəsində noyabr ayında açıqlanması gözlənilir.

Times Higher Education (THE) tərəfindən açıqlanan 2024-cü il Impact Rankings məlumatlarına görə, Naxçıvan Dövlət Universiteti Birləşmiş Millətlər Təşkilatının (BMT) Davamlı İnkişaf Məqsədlərinə (SDG) yönəlmiş səylərini əks etdirən sıralamada əhəmiyyətli bir yer tutmuşdur. Xüsusilə, NDU SDG 2 - "Aclığa Son" kateqoriyasında dünya üzrə 402-600-cü sıralarda yerləşərək, Azərbaycanın ali təhsil müəssisələri arasında ən yüksək nəticəni əldə etmişdir. Bu göstərici, NDU-nun davamlı inkişaf sahəsindəki elmi və sosial məsuliyyətini göstərən mühüm bir nailiyyətdir.

**Naxçıvan Dövlət Universiteti “Qlobal Davamlı İnkişaf Konqresi”ndə Təmsil Olunmuşdur**

Naxçıvan Dövlət Universiteti “Times Higher Education” (THE) beynəlxalq reytinq agentliyinin təşəbbüsü ilə Tailandın paytaxtı Banqkokda keçirilən “Qlobal Davamlı İnkişaf Konqresi”ndə Azərbaycan pavilyonunda Naxçıvan Dövlət Universitetinin standı hazırlanmış və universitetin təbliği işi aparılmışdır. Konqresdə dünyanın 100-dən çox ölkəsindən 3000-dən artıq qlobal təhsil lider və innovatorları davamlı inkişaf mövzusunda müzakirələr aparıb.

Konqresdə universitetlərin fəaliyyəti Birləşmiş Millətlər Təşkilatının 17 Dayanıqlı İnkişaf Məqsədinə əsasən qiymətləndirilib. Bu tədbir davamlı inkişaf sahəsində beynəlxalq əməkdaşlığı gücləndirmək və müasir innovativ yanaşmaları təqdim etmək məqsədini güdmüşdür.








| Rank | Name | Reducing inequalities |
|---|---|---|
| 401–600 | Nakhchivan State University<br>Azerbaijan | 40.0–51.7 |

| Rank | Name | Life on land |
|---|---|---|
| 401+ | Nakhchivan State University<br>Azerbaijan | 2.1–38.0 |

| Rank | Name | No poverty |
|---|---|---|
| 601–800 | Nakhchivan State University<br>Azerbaijan | 23.3–38.1 |

| Rank | Name | Decent work and economic growth |
|---|---|---|
| 801+ | Nakhchivan State University<br>Azerbaijan | 1.4–35.6 |





# ELMİ FƏALİYYƏTİN TƏŞKİLİ

Naxçıvan Dövlət Universitetində 2024-cü ilin ilk 6 ayında 9 Beynəlxalq, 8 Respublika və 1 Universitetdaxili olmaqla 18 konfrans keçirilmişdir:

1. KƏND TƏSƏRRÜFATI BEYNƏLXALQ KONQRESİ
2. NAXÇIVANDA TƏHSİLİN MUXTARİYYƏT DÖVRÜ: PROBLEMLƏR, HƏLLƏR, PERSPEKTİVLƏR RESPUBLİKA ELMİ KONFRANSI
3. İPƏK YOLU III BEYNƏLXALQ ELMİ KONFRANSI
4. “ELM GÜNÜ”NƏ HƏSR OLUNMUŞ KONFRANS
5. ELMİ İNKİŞAF: UĞURLAR VƏ ÇAĞIRIŞLAR MÖVZUSUNDA GƏNC TƏDQİQATÇILARIN I RESPUBLİKA ELMİ KONFRANSI
6. AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ, TİBB ELMLƏRİ DOKTORU, PROFESSOR, ƏMƏKDAR ELM XADİMİ RƏHİM RƏHİMOVUN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ “NƏSİLLƏRƏ NÜMUNƏ” YUBİLEY KONFRANSI
7. NAXÇIVAN SAĞLAMLIQ GÜNLƏRİ BEYİN ÖLÜMÜ DİAQNOZUNUN TƏYİNİNƏ MULTİDİSSİPLİNAR YANAŞMA RESPUBLİKA ELMİ KONFRANSI
8. II BEYNƏLXALQ APİTERAPİYA VƏ TƏBİƏT KONQRESİ







1. AZƏRBAYCANDA ƏTRAF MÜHİTİN QORUNMASINDA ÜMUMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU ELMİ-PRAKTİK KONFRANS
2. TİBB TƏLƏBƏLƏRİ VƏ GƏNC TƏDQİQATÇILARIN RESPUBLİKA KONFRANSI
3. MƏDƏ BAĞIRSAQ VƏ QARACİYƏRİN AKTUAL PROBLEMLƏRİ RESPUBLİKA KONFRANSI
4. DİŞ ÇƏNƏ ANOMALİYALARININ DİAQNOSTİKA VƏ MÜALİCƏSİNDƏ MÜASİR ÜSULLAR RESPUBLİKA ELMİ-PRAKTİKİ KONFRANSI
5. BİOMÜXTƏLİFLİYİN DAYANIQLIĞININ TƏMİN EDİLMƏSİNDƏ YENİ ÇAĞIRIŞLAR (COP29) YAŞIL DÜNYA VƏ İNSAN SAĞLAMLIĞI BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANS
6. FİZİKANIN AKTUAL PROBLEMLƏRİ BEYNƏLXALQ ELMİ KONFRANS
7. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ YARANMASI: KEÇMİŞDƏN BU GÜNƏ VƏ SABAHA BEYNƏLXALQ KONFRANS
8. IV BEYNƏLXALQ AVRASİYA ELMİ ARAŞDIRMALAR VƏ İNNOVASİYA KONQRESİ
9. XXII BEYNƏLXALQ YENİ DÜNYADA KOMMUNİKASİYA KONQRESİ
10. QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ BEYNƏLXALQ KONQRES
11. 2024-CÜ İLİN II YARISI ÜÇÜN PLANLAŞDIRILMIŞ KONFRANSLAR 2024-CÜ İLİN II YARISI ÜÇÜN PLANLAŞDIRILMIŞ KONFRANSLAR










**Elmi dərəcə alanlar**

2024-cü ildə universitetin əməkdaşlarından elmi adları almaları üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılmış və 1 nəfər professor, 1 nəfər elmlər doktoru, eləcə də, əməkdaşlarımızdan 4 nəfəri fəlsəfə doktoru diplomu almışdır.

**Universitet əməkdaşlarının elmi göstəriciləri**

2024-ci ilin 6 ayında universitet əməkdaşlarının 190 monoqrafiya, dərslik, dərs vəsaiti, metodik vəsaiti və proqramı, respublikada 353 elmi məqalə və konfrans materialı, xaricdə 516 elmi məqalə və konfrans materialı dərc olunmuşdur.

**Doktorantura və dissertantura sahəsində görülmüş işlər**

Naxçıvan Dövlət Universitetində doktorantura və dissertantura səviyyələri üzrə fəlsəfə və elmlər doktoru proqramları üzrə elmi kadrlar hazırlanır.

Universitetdə doktorantura və dissertantura səviyyəsində fəlsəfə doktoru (33) və elmlər doktoru (24) proqramlarında cəmi 57 ixtisas üzrə kadr hazırlığı aparılır. Hazırda universitetdə fəlsəfə doktoru proqramı üzrə 63, elmlər doktoru proqramı üzrə isə 30 nəfər doktorant və dissertant (cəmi 93 nəfər) vardır.

Hazırda doktorant və dissertantlardan 12 nəfəri dissertasiya işlərini tamamlamış, ilkin müzakirədən keçmiş və sənədlərini elmi və ali təhsil müəssisələrində fəaliyyət göstərən uyğun Dissertasiya Şuralarına təqdim etmişdir. Müdafiə edənlərdən 3 nəfəri Naxçıvan Dövlət Universitetinin əməkdaşı olmuşdur. Cari ilin 6 ayında 5 əməkdaş fəlsəfə doktoru diplomu və dosent atestatı almışdır.

**Dissertasiya Şurasının fəaliyyəti**

Naxçıvan Dövlət Universiteti nəzdində 5706.01-“Azərbaycan dili”, 5708.01-“German dilləri” və 5716.01-“Azərbaycan ədəbiyyatı” ixtisasları üzrə filologiya elmləri sahəsində fəlsəfə doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyat nömrəsi FD 2.39 olan Dissertasiya Şurası, 5704-01- Dil nəzəriyyəsi indeksi üzrə BFD 2.39/1 Birdəfəlik Dissertasiya Şurası və 5308.01-Ümumi iqtisadiyyat, 5311.01 Müəssisələrin təşkili və idarə olunması indeksləri üzrə BFD 4.24 Birdəfəlik Dissertasiya Şuraları yaradılmışdır. Hesabat dövründə həmin Dissertasiya Şuralarında universitetin əməkdaşlarından olan 3 dissertant “Azərbaycan dili” və “German dilləri” ixtisasları üzrə, 1 dissertant isə 5704.01-Dil nəzəriyyəsi üzrə uğurla müdafiə etmişdir.






# UNİVERSİTET-SƏNAYE İŞBİRLİYİ





Naxçıvan Dövlət Universiteti (NDU) ilə bir neçə sənaye qurumu arasında əməkdaşlıq memorandumu imzalanıb. Bu əməkdaşlıqlar, universitetin sənaye ilə əlaqələrini möhkəmləndirmək və təhsil sahəsində innovativ inkişafı dəstəkləmək məqsədi daşıyır.

1. APF Group MMC ilə əməkdaşlıq: NDU ilə "APF Group" MMC arasında imzalanmış müqavilə, hər iki tərəfin gələcək perspektivlərini genişləndirəcək. NDU rektoru Elbrus İsayev görüşdə bu əməkdaşlığın gələcəkdə universitetin akademik potensialını artıracağını vurğulayıb. APF Group MMC-nin direktoru Fuad Əlizadə, rəhbərlik etdiyi şirkətin inşaat, kənd təsərrüfatı, otelçilik və qida sektorları kimi müxtəlif sahələrdə fəaliyyət göstərdiyini və bu əməkdaşlıq sayəsində qeyri-neft sektoruna investisiya qoyuluşunun təşviq ediləcəyini bildirib. Görüşdə, həmçinin universitetdə yaradılacaq Texnoparkda birgə tədqiqat və innovasiyaların inkişafına dair müzakirələr aparılıb.

2. Ləzzət Qida Sənaye MMC ilə əməkdaşlıq: NDU və “Ləzzət Qida Sənaye” MMC arasında əməkdaşlıq memorandumu imzalanıb. Bu memorandum çərçivəsində universitetin sənaye sahələri ilə əməkdaşlığının gücləndirilməsi və Texnoparkda tədqiqatların və innovasiyaların inkişafı nəzərdə tutulur. Bu əməkdaşlıq, universitetin akademik potensialının sənaye təcrübəsi ilə birləşdirilməsi və gələcək layihələr üçün vacib bir addım olaraq görülür.

3. Sahibkarlar Konfederasiyası və Cahan Holding ilə əməkdaşlıq: NDU, həmçinin Sahibkarlar Konfederasiyası və “Cahan Holding” ilə innovativ inkişafı dəstəkləyən əməkdaşlıq memorandumu imzalayıb. Bu əməkdaşlıq, universitetin Texnoparkında birgə tədqiqatların və layihələrin həyata keçirilməsi məqsədilə nəzərdə tutulur.



# İŞƏQƏBUL GÖSTƏRİCİLƏRİMİZ

Naxçıvan Dövlət Universitetində kadr hazırlığı məsələsi daim diqqət mərkəzində saxlanılır. Buna görə də, professor-müəllim heyətinin yenilənməsinə və gəncləşməsinə diqqət yetirilir, elmi-pedaqoji kadrların hazırlanması üçün lazımi şərait yaradılır. Bu il kadr hazırlığı sahəsində müəyyən işlər görülmüş və yeni kadrlar işə cəlb olunmuşdur. Həmin kadrlar təkcə müəllim kimi deyil, həm də elm və təhsillə bağlı müxtəlif layihələrdə də iştirak edirlər.

İşə qəbul prosesinin mütəşəkkil şəkildə həyata keçirilməsi nəticəsində, 233 nəfər kadrın universitetin müxtəlif struktur bölmələrində aşağıdakı kateqoriyalar üzrə təminatı uğurla yerinə yetirilmişdir:

- Professor-müəllim heyəti: Naxçıvan Dövlət Universiteti, elmi-pedaqoji fəaliyyətin gücləndirilməsi və tədris keyfiyyətinin artırılması məqsədilə, 62 nəfərdən ibarət professor-müəllim heyətini işə qəbul etmişdir. Bu heyətə müxtəlif fakültələr üzrə doktorantlar, elmlər namizədləri və professorlar daxil edilmişdir.

- Fakültələr üzrə inzibati və texniki heyət: Tədris prosesinin səmərəliliyini artırmaq məqsədilə, universitet 31 nəfərdən ibarət inzibati və texniki heyəti fakültələr üzrə işə qəbul etmişdir. Bu əməkdaşlar fakültələrin idarəetmə və dəstək fəaliyyətlərinin həyata keçirilməsində mühüm rol oynayırlar.

- Rektorluq üzrə inzibati və texniki heyət: Universitetin idarəetmə strukturlarının gücləndirilməsi çərçivəsində, 30 nəfər inzibati və texniki heyət rektorluqda işlə təmin olunmuşdur. Onların vəzifələrinə universitetin ümumi idarəetmə fəaliyyətinin koordinasiyası və strateji məqsədlərin həyata keçirilməsi daxildir.

- Universitetin nəzdində və tabeliyində olan müəssisələr: NDU-nun nəzdində və tabeliyində olan müxtəlif müəssisələrdə 87 nəfər işlə təmin edilmişdir. Bu işçilər, universitetin fəaliyyət sferasının genişlənməsində və müxtəlif layihələrin icrasında əhəmiyyətli rol oynayırlar.





Digər müxtəlif vəzifələr: Universitetin ehtiyaclarına uyğun olaraq, müxtəlif vəzifələr üzrə 23 nəfər işə qəbul edilmişdir. Bu kateqoriya, müxtəlif sahələrdə ixtisaslaşmış kadrları əhatə edir və universitetin operativ fəaliyyətinə dəstək məqsədi daşıyır.

Naxçıvan Dövlət Universitetinin bu il ərzində həyata keçirdiyi işə qəbul prosesi, universitetin strateji inkişaf hədəflərinə çatmaq üçün mühüm addım hesab olunur. Yeni kadrların işə qəbul edilməsi, universitetin elmi-tədqiqat potensialını və tədris keyfiyyətini daha da gücləndirərək, ali təhsil müəssisəsinin rəqabət qabiliyyətini artırmağa yönəlmişdir.









# DÖVLƏT QULLUĞUNA QƏBUL GÖSTƏRİMİZ

**Naxçıvan Dövlət Universitetinin tələbələri Dövlət İmtahan Mərkəzinin keçirdiyi Dövlət Qulluğu imtahanlarında böyük müvəffəqiyyət əldə edərək ölkənin ali təhsil müəssisələri arasında birinci yerdə qərarlaşıb. Bu nəticə, NDU-nun tələbələrinin akademik hazırlığının və universitetin təhsil keyfiyyətinin yüksək səviyyədə olduğunu bir daha sübut edir.**

**Ən Yüksək Nəticə Göstərən Universitetlər:**

1. **Naxçıvan Dövlət Universiteti**
2. **Bakı Dövlət Universiteti**
3. **Azərbaycan Dövlət İqtisad Universiteti**

NDU-nun bu uğuru, universitetin dövlət qulluğuna yönəlmiş tədris proqramlarının effektivliyini və tələbələrin bu sahədə müvəffəqiyyətə nail olmalarını təmin edən geniş imkanlarını göstərir. Universitetin rektoru və akademik heyəti, tələbələrinin bu nailiyyətlərindən qürur duyduqlarını və onların gələcəkdə də bu uğurları davam etdirəcəyinə əmin olduqlarını bildiriblər.

NDU, ölkə üzrə ən qabaqcıl ali təhsil müəssisələrindən biri olaraq, tələbələrinin dövlət qulluğu sahəsində yüksək peşəkarlıq səviyyəsinə çatmasına yönəlmiş fəaliyyətlərini davam etdirir. Bu nəticələr, universitetin Azərbaycanın təhsil sistemindəki mühüm rolunu və cəmiyyətə verdiyi dəyəri bir daha təsdiqləyir.





# KEYFİYYƏT TƏMİNATI

**Naxçıvan Dövlət Universitetində (NDU) keyfiyyət təminatı sahəsində aşağıdakı işlər görülmüşdür:**

Keyfiyyət təminatı siyasətinin hazırlanması: ESG 2015 standartlarına uyğun olaraq keyfiyyət təminatı siyasəti hazırlanmışdır. Bu siyasət çərçivəsində tədris və tədqiqat proseslərinin keyfiyyətinin artırılması məqsədilə konkret prosedurlar və tələblər müəyyən edilmişdir.

Keyfiyyət mədəniyyətini inkişaf etdirmək üçün təlimlər: Keyfiyyət mədəniyyətini gücləndirmək üçün müəllim və inzibati heyətə mütəmadi olaraq təlimlər keçirilmişdir. Bu təlimlərdə ESG standartlarına uyğun fəaliyyətlərin necə həyata keçirilməsi və keyfiyyətin təmin edilməsi üçün metodlar tədris olunmuşdur.

Keyfiyyət göstəricilərinin hazırlanması: Tədris və elmi-tədqiqat proseslərinin keyfiyyətini ölçmək üçün konkret göstəricilər hazırlanmışdır. Bu göstəricilər vasitəsilə təhsil nailiyyətləri, elmi fəaliyyətlərin effektivliyi və tələbə məmnuniyyəti kimi sahələrdə nəticələr qiymətləndirilmişdir.

Keyfiyyət təminatı qaydalar toplusunun hazırlanması: Keyfiyyət təminatı siyasətini əhatə edən qaydalar toplusu hazırlanmışdır. Bu sənəddə universitetin struktur bölmələrinin fəaliyyətləri, nəzarət və hesabatlılıq mexanizmləri ətraflı şəkildə təsvir edilmişdir.

Məmnunluq sorğularının keçirilməsi: Hər semestr tələbələr və müəllim heyəti arasında məmnunluq sorğuları keçirilmişdir. Sorğuların nəticələri təhlil edilərək, lazımi dəyişikliklər etmək üçün tədbirlər planı hazırlanmışdır.

Hesabatlılıq: Keyfiyyət təminatı proseslərində hesabatlılıq prinsipi tətbiq edilmişdir. Hər bir struktur bölmə öz fəaliyyətləri ilə bağlı hesabat hazırlamış və bu hesabatlar əsasında bölmələrin keyfiyyət göstəriciləri qiymətləndirilmişdir. Nəticələrə əsasən, iş proseslərində dəyişikliklər edilmiş və inkişaf strategiyaları yenilənmişdir.

Bu fəaliyyətlər NDU-da keyfiyyət təminatının məqsədyönlü şəkildə həyata keçirildiyini və hesabatlılıq prinsipinə əsaslandığını göstərir.



# “QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ” FESTİVAL-KONQRES

**21-22 iyun 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə “Qərbi Azərbaycana Qayıdış” Festival/Konqresi keçirilmişdir.**

Festival/Konqresin ikinci günündə Azərbaycanın və Türkiyənin bir sıra elm və təhsil müəssisələrinin iştirakı ilə konqres keçirilmişdir. Konqres 7 istiqamət, 24 çıxışlı panel və 5 poster təqdimatından ibarət olmaqla 29 paneldə üz-üzə və onlayn (hibrid) formada təşkil edilmişdir.

Konqresdə 44 müəssisə üzrə 289 sayda əməkdaş iştirak etmişdir. Konqresin “Qərbi Azərbaycan: tarix, həqiqətlər və faktlar” istiqaməti üzrə Qərbi Azərbaycanda yerləşən arxeoloji abidələr, ilk insan məskənləri, tarixi abidələrin tədqiqinin vəziyyəti, bölgənin öyrənilməsinin tarixşünaslığı, Azərbaycan torpaqlarında ermənilərin yerləşdirilməsi, etnomədəni terror, azərbaycanlılara qarşı çarizmin müstəmləkəçilik siyasəti, 1905-1907, 1918-1920, 1948-1953, 1987-1991-ci illərdə azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı və deportasiya siyasəti üzrə məqalələr qəbul edilmiş və məruzələri dinlənilmişdir.

“Qərbi Azərbaycanın mədəni sərvətləri” istiqaməti üzrə Qərbi Azərbaycanda orta əsrlərdə fəaliyyət göstərmiş məktəb və mədrəsələr, XIX əsr Azərbaycan təhsil sistemində Qərbi Azərbaycanda fəaliyyət göstərən tədris ocaqları, İrəvan quberniyasında təhsil və elm, Qərbi Azərbaycan torpaqlarında tarixən mövcud olan mədəni irs və onun bugünkü vəziyyəti, Qərbi Azərbaycanda yaşamış saz-söz ustalarının yaradıcılığı, görkəmli elm adamları, şairlər və incəsənət xadimləri üzrə məruzələr təqdim edilmişdir.

“Qərbi Azərbaycan dil faktları və toponimikası” istiqaməti üzrə Qərbi Azərbaycan şivələri, Qərbi Azərbaycan toponimikası, “Qərbi Azərbaycan ədəbiyyatı və folkloru” istiqaməti üzrə isə Qərbi Azərbaycan ədəbiyyatı, Qərbi Azərbaycan folkloru üzrə çıxışlar dinlənilmişdir.

“Qərbi Azərbaycanda elm və təhsil” istiqaməti üzrə Qərbi Azərbaycandan olan elm xadimləri, Qərbi Azərbaycanda milli Azərbaycan məktəbləri mövzularında çıxışlar dinlənilmişdir.

“Qərbi azərbaycana qayıdışın hüquqi aspektləri” istiqaməti üzrə Qərbi Azərbaycandan deportasiya olunmuş azərbaycanlıların pozulmuş hüquq və azadlıqları, Qərbi Azərbaycanda törədilmiş beynəlxalq cinayətlər və Ermənistanın məsuliyyəti, Qərbi Azərbaycanda Azərbaycan xalqına məxsus mədəni irsin beynəlxalq hüquqi müdafiəsi məsələləri geniş auditoriyada müzakirəyə çıxarılmışdır.

“Qərbi Azərbaycanın təbii sərvətləri” istiqamətində Qərbi Azərbaycanın coğrafiyası, Qərbi Azərbaycanın təbii sərvətləri, Qərbi Azərbaycanın florası və faunası sahəsindəki tədqiqatlara yer verilmişdir.

Yekun olaraq konqresə təqdim olunan 300-dən çox məruzə baxılmış, uyğunluqlarına görə seçilmiş və 301 müəllif tərəfindən təqdim edilən 258 məqalə canlı, onlayn və poster təqdimatlarda təqdim edilmişdir.

















NDU















**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə karyera sərgisi keçirilib.**

Sərgidə 2000-dən çox gənc üçün iş və təcrübə imkanları təqdim edilib. Universitetin əməkdaşlıq etdiyi 32 dövlət qurumu və 8 özəl şirkət müxtəlif ixtisaslar üzrə vakansiya və təcrübə proqramları təklif edib. Tədbirə 4000-dən çox gəncin müraciəti qeydə alınıb.
















# TƏLƏBƏLƏRİMİZİN NAİLİYYƏTLƏRİ

**Naxçıvan Dövlət Universitetinin tələbələri və nəzdində fəaliyyət göstərən təhsil müəssisələrinin tələbə və şagirdləri yenə də bir sıra möhtəşəm nailiyyətlərə imza atıblar. Onlar müxtəlif sahələrdə uğurlar əldə edərək universitetimizi qürurlandırmağa davam edirlər. İncəsənət, təhsil, idman və elmi sahələrdə qazandıqları bu nailiyyətlər universitetimizin uğur tarixində əhəmiyyətli yer tutmaqdadır. Aşağıda yanvar-iyul ayları aralığında əldə olunan bəzi uğurların siyahısı təqdim edilmişdi:**

**Yanvar :**

1.Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Rəngkarlıq ixtisası üzrə III kurs tələbəsi Aidə İbrahimova Rəssamlar Birliyinə üzv qəbul olunub.

2.Tələbəmiz Anar Əhədov "Azərbaycanın Uğurlu Tələbələri" ensiklopediyasına adını yazdıran ilk tələbə olub.

3.NDU Beynəlxalq məktəbinin şagirdləri Nuray Əlizadə, Oğuz Rüstəmli, Ceyhunə Əzimova, Məmməd Həsənov, Nuray Nuriyeva, Rəvan Yaqubov, Aygün Abdullayeva, Sabir Hüseynov, Zərifə Bünyatova, Sənan Həsənzadə, Turan İsmayılzadə, Fərid Həsənli, Varis Ələkbərov, Nuray Qasımova və Kənan Məmmədzadə Respublika fənn olimpiadasının yarım final mərhələsinə yüksəliblər.

**Fevral :**

1.NDU Beynəlxalq məktəbinin şagirdi Hüseyn Tahirov İnformatika fənni üzrə RFO-nun final mərhələsinə vəsiqə qazanıb.

2.Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbinin şagirdləri Əsgərova Jasmin, Həsənzadə Sənan, Məmmədli Atilla, Hüseynova Rüqəyya Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş Nəsrəddin Tusi adına Fizika-Riyaziyyat Olimpiadasında final mərhələsinə yüksəliblər.

3.Tələbə Gənclər Təşkilatlarının Respublika Forumunda NDU TGT-nin sədr müavini Nilgün Qənbərli "İlin TGT nümayəndəsi" nominasiyası üzrə təltif olunub.

4.Tələbə Elmi Cəmiyyəti xətti ilə yerinə yetirilən elmi-tədqiqat işlərinin davamı olaraq 2023-cü ildə təhsil alan 24 tələbə xarici konfranslarda çıxış edib, indeksli jurnallarda məqalələri dərc olunub.

1.Naxçıvan Dövlət Universitetinin magistrantları Leyla Budaqova və Fərhad Rüstəmov İngiltərədə keçirilən "World of Conference" beynəlxalq konfransında iştirak edərək sertifikatla təltif olunublar.
2.Naxçıvan Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının fəallarının layihələri 17000 manat məbləğində qrant qazanıb.
3.Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar Uşaq-gənclər idman məktəbinin minifutbol meydançasında ali və orta ixtisas təhsili müəssisələrinin komandaları arasında minifutbol üzrə Naxçıvan şəhər birinciliyi keçirilib və NDU-nun futbol komandası I yeri tutub.
4.Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan I kurs tələbəsi Yusif Mirzəzadənin “Ekoloji hüquq pozuntuları beynəlxalq hüquq aktlar və dünya dövlətlərinin qanunvericiliyi müstəvisində: Mövcud problemlər və effektiv həll yolları” adlı elmi məqaləsi Qanun hüquq jurnalında çap olunub.
5.NDU-nun Beynəlxalq Münasibətlər və Hüquq fakültəsinin Fəlsəfə ixtisası üzrə tələbəsi Cəmil Xudayarov Avropa İttifaqı Proqramı “Erasmus Plus Gənclik Mobilliyi” çərçivəsində 3-10 aprel 2024-cü il tarixlərində Almaniyada keçirilən “Mədəniyyət Elçiləri Hərakatı” (“Culture Ambassadors in Action”) layihəsində iştirak edib.
6.Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Dövlət Univeristetinin Tibb Fakültəsində Avropa Tibb Tələbələri Assosiasiyasının təmsilçiliyinin yaradılması, fakültənin Assosiasiyaya həqiqi üzv olaraq qəbul olunması ilə bağlı tədbir keçirilib.

**May :**
1.Ölkəmizi ilk dəfə olaraq Avropa Tibb Tələbələri Assosiasiyasında təmsil edən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi assosiativ üzv statusunu qazanıb.
2.Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecinin tələbələri “Sən elə bir zirvəsən” adlı respublika ifa müsabiqəsində uğur qazanıblar.
3.Naxçıvan Muxtar Respublikası Ailə Qadın Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə “İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik” mövzusunda XI respublika yazı, dekorativ tətbiqi sənət və rəsm əsəri müsabiqəsi keçirilib.Müsabiqədə universitetin İncəsənət fakültəsinin Təsviri sənət müəllimliyi ixtisasi üzrə III kurs tələbəsi İnci Qəmbərova I Rəngkarlıq ixtisası üzrə III kurs tələbəsi Aysel Axundova isə III yerə layiq görülüb.
4.Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi tərəfindənUlu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə və Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş “Yeni dövrün ən yaxşı mühasibi” IV muxtar respublika müsabiqəsində tələbələr arasında NDU İqtisadiyyat və idarəetmə fakültəsi Mühasibat ixtisası üzrə lV kurs tələbələri ən yüksək nəticəni göstərərək qalib olublar.
5.Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin EMSA Naxçıvan tələbə təşkilatının 7 üzvünün 6 məqaləsi EMSA Avropanın tərəfdaşı olduğu “AMSA International” təşkilatının beynəlxalq indeksli “ASPIRE” Jurnalınının 39-cu buraxılışında nəşr olunub.

**İyun :**
1.StartupFest Naxçıvan” proqramının yekun tədbiri keçirilib və yekun qiymətləndirməyə görə Naxçıvan Dövlət Universitetinin “Easy Agriculture” komandası I yerin qalibi olub.
Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının IV kurs tələbəsi Nurtən Həsənova və İqtisadiyyat (tədrisi ingilis dilində) ixtisasının III kurs tələbəsi Tuncay Ələkbərov Şuşa şəhərində keçirilən "Şuşa - İslam Əməkdaşlıq

1.Təşkilatının Gənclər Paytaxtı 2024" Beynəlxalq Proqramının açılış mərasimində iştirak ediblər.
2.Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi, Xəzər İntellektual Gənclər Klubu və Gənclərin İnkişaf və Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Nə? Harada? Nə zaman?" üzrə “Universiada” turnirinin qalibi Naxçıvan Dövlət Universitetini təmsil edən komanda olub.

**İyul :**
1.Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbələri Türkiyə universitetlərində təcrübəyə yollanıblar.
2.EMSA Naxçıvan EIC Pillarının aktiv üzvü, Tibb fakültəsinin Müalicə işi ixtisası üzrə V kurs tələbəsi Dəniz Kərimzadə yüksək sosial və akademik bacarıqları ilə fərqləndiyi üçün EMSA Treynerlər Şəbəkəsinin bu il həyata keçirəcəyi TCE'24-ə bütün Avropa Tibb tələbələri tərəfindən edilən müraciətlər arasından seçilərək qəbul olunan 20 tələbədən biri olub.
3.Erudit onlayn Beynəlxalq kimya müsabiqəsinin "A-dan Z-yə kimya" və "Kimyəvi elementlərin kəşfi tarixi" bölümlərində NDU-nun Kimya ixtisası üzrə ll kurs tələbələri Telli İmanova və Duyğu Hüseynli Kimya kafedrasının müdiri Şəmil Mahmudovun və tədqiqatçı alim Fizzə Məmmədovanın rəhbərliyi ilə I yerə çıxaraq 1-ci dərəcəli diplom və qızıl medala layiq görülüblər.

**“İdeyanı reallaşdır 2023” Gənclərin fərdi layihələri üzrə qrant müsabiqəsinin iştirakçıları :**
1.Qasımov Əziz Kamal oğlu
2.Məmmədova Salatın həsən qızı
3.Qənbərli Nilgün Məcid qızı
4.Allahyarova Aytac Rəşad qızı
5.İsmayılov Həsən Əli oğlu
6.Məmmədova Xəyalə Kamil qızı

5.Naxçıvan Dövlət Universitetinin tələbəsi Nəsrin Babayevaya Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən “İlin gənci” mükafatı verilib






# EMSA:

Mart

1. Tibb fakültəsinin tələbələri EMSA(Avropa Tibb Tələbələri Təşkilatı) Türkiyənin təşkil etdiyi "BlueCon 2024"-ün çoxistiqamətli tədbirində iştirak ediblər.

Aprel

2. Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Dövlət Univeristetinin Tibb Fakültəsində Avropa Tibb Tələbələri Assosiasiyasının təmsilçiliyinin yaradılması, fakültənin Assosiasiyaya həqiqi üzv olaraq qəbul olunması ilə bağlı tədbir keçirilib.

May

3. Ölkəmizi ilk dəfə olaraq Avropa Tibb Tələbələri Assosiasiyasında təmsil edən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi assosiativ üzv statusunu qazanıb.

4. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin EMSA Naxçıvan tələbə təşkilatının 7 üzvünün 6 məqaləsi EMSA Avropanın tərəfdaşı olduğu “AMSA International” təşkilatının beynəlxalq indeksli “ASPIRE” Jurnalınının 39-cu buraxılışında nəşr olunub.

İyul

5. EMSA Naxçıvan EIC Pillarının aktiv üzvü, Tibb fakültəsinin Müalicə işi ixtisası üzrə V kurs tələbəsi Dəniz Kərimzadə yüksək sosial və akademik bacarıqları ilə fərqləndiyi üçün EMSA Treynerlər Şəbəkəsinin bu il həyata keçirəcəyi TCE'24-ə bütün Avropa Tibb tələbələri tərəfindən edilən müraciətlər arasından seçilərək qəbul olunan 20 tələbədən biri olub.





# İNCƏSƏNƏT SAHƏSİNDƏ UĞURLARIMIZ

**Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 100 illik yubleyinə həsr edilmiş "Naxçıvanda caz sədaları" adlı ilk konsert proqramı keçirilib**

Ali təhsil ocağının İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında Pink Martinin "Carioca", Bill Evansın "Autumn leaves", Frenk Sinatranın "Strangers in the Night", Poul Desmondun "Take Five", Vaqif Mustafazdənin "Mart", "Gəlmədi", Əzizə Mustafazadənin "Danceof fire", "Boomerang" və digər musiqilər səsləndirilib.

Azerbaycan Milli Konservatoriyası, "Populyar musiqi və caz ifaçılığı" kafedrasının kafedra müdiri: pianoçu, bəstəkar, əməkdar artist Emil Əfrasiyab özünün yazdığı "İki dünya" əsəri, Azərbaycanın görkəmli caz-muğam ustası Vaqif Mustafazadənin "Mart" əsərini, Vaqif Mustafazadənin qızı, məşhur caz müğənnisi və pianoçusu Əzizə Mustafazadəyə ithaf etdiyi "Əzizə" adlı əsərini və digər əsərləri ifa edib.

Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Milli Konservatoriyası arasında qurulan əməkdaşlıq əlaqələrinin davamı olaraq Populyar Musiqi və caz ifaçılığı kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar artisti, məşhur caz ifaçısı Emil Əfrasiyab və Azərbaycan Milli Konservatoriyasının Zərb aləti üzrə müəllimi Elvin Başirov Naxçıvan Dövlət Universitetində ustad dərsləri keçiblər






Jazz
sədaları






Jaz

**C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələri Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyasını nümayiş etdirmişdir.**

Nümayişdən əvvəl NDU-nun rektoru Elbrus İsayev çıxış edərək təhsil ocağının hazırladığı səhnə əsərinin muxtar respublikanın 100 illiyinə töhfəsi olduğunu bildirib. NDU-nun konservatoriyası və Musiqi Kollecinin müəllim və tələbələri tərəfindən səhnələşdirilən tamaşanın bədii rəhbəri və quruluşçu rejissoru Əməkdar artist Mübariz Əsgərov, dirijoru Xalq artisti, professor Çingiz Axundov, quruluşçu rəssamı Əməkdar rəssam Cavid İsmayılovdur. Ümumilikdə 42 müəllim və tələbənin iştirak etdiyi tamaşanı universitetin simfonik orkestri müşayiət edib.










# KAPİTAL BANK ASC İLƏ ƏMƏKDAŞLIQ

Naxçıvan Dövlət Universiteti ilə Kapital Bank ASC arasında imzalanmış ilk memorandum, elmi kadr hazırlığının keyfiyyətinin artırılması və universitet-sənaye əməkdaşlığının gücləndirilməsi istiqamətində önəmli bir addımdır. Memorandum, tərəflər arasında elmi-texnoloji tərəqqinin və innovasiya potensialının inkişafını dəstəkləmək məqsədilə əməkdaşlığı möhkəmləndirmək niyyətini əks etdirir. Kapital Bank, bu əməkdaşlıq çərçivəsində elm sahəsində dövlət siyasətinə dəstək verməklə yanaşı, universitetin tədqiqat və tədris fəaliyyətlərinə də töhfə verməyi qarşısına məqsəd qoymuşdur.

Bu çərçivədə reallaşan mühüm təşəbbüslərdən biri də Naxçıvan Dövlət Universiteti, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası və digər təşkilatların birgə təşkil etdiyi kibertəhlükəsizlik düşərgəsidir. Düşərgə, Kapital Bank ASC-nin baş sponsorluğu ilə həyata keçirilmişdir və Azərbaycanın kibertəhlükəsizlik sahəsində kadr hazırlığına verdiyi önəmin bir təzahürüdür. Bu tədbir, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrini bir araya gətirərək, onlara kibertəhlükəsizlik sahəsində nəzəri və praktiki biliklər vermək məqsədini güdürdü.

Tədbir boyunca iştirakçılara kibertəhlükəsizlik mühəndisliyi, informasiya təhlükəsizliyi, bulud texnologiyaları və hüquqi aspektlər kimi mövzular üzrə tanınmış mütəxəssislər tərəfindən təlimlər keçirilmişdir. Təlimlərlə yanaşı, tələbələr arasında keçirilən simulasiya yarışları, praktiki bacarıqların tətbiq edilməsinə şərait yaratmışdır. Düşərgənin sonunda isə iştirakçılara sertifikatlar təqdim edilmiş və simulyasiya qaliblərinə Baku IT Academy tərəfindən kurs paketləri və digər dəyərli mükafatlar verilmişdir.











# TÜRK DÜNYASI TİBB QURULTAYI

2024-cü il sentyabrın 5-də Yeditəpə Universitetində “Türk Dövlətlərinin I Tibb Konqresi” işə başlamışdır. Bu tədbir, Türk dünyasının tibb sahəsində əməkdaşlığını gücləndirmək məqsədi ilə keçirilən mühüm bir elmi platformadır və Naxçıvan Dövlət Universiteti də təşkilatçılar arasında yer almışdır. Tədbirdə Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Türk Cümhuriyyəti və Türkmənistanın qabaqcıl universitetlərinin nümayəndələri iştirak etmişdir.

Bu konqres, 2022-ci ildə Naxçıvan Dövlət Universitetində keçirilən I Beynəlxalq Tibbi Forumun davamı kimi nəzərdə tutulmuşdur. İki il əvvəl keçirilən forumda Türk dövlətlərinin tibb təhsili və elmi sahəsində geniş əməkdaşlıq imkanlarının mövcud olduğu vurğulanmış, birgə layihələr üçün zəmin yaradılmışdır. Cari konqres bu istiqamətdə daha irəli addımlar atmaq məqsədi daşıyır.

Konqresin əsas məqsədləri tibb sahəsində yeni elmi nailiyyətlərin paylaşılması, texnoloji yeniliklərin müzakirəsi və Türk dövlətləri arasında ortaq strategiyaların müəyyənləşdirilməsi olmuşdur. Bu əməkdaşlıq sayəsində ortaq problemlərə həll yolları axtarılacaq və tibbi təhsilin keyfiyyətini yüksəltmək üçün yeni yollar araşdırılacaqdır.

Bu konqresin nəticəsində Türk dövlətləri arasında tibbi təhsil və elmi araşdırmaların yeni mərhələyə qədəm qoyacağı və ortaq əməkdaşlıqla tibb sahəsində daha yüksək səviyyələrə çatılacağı gözlənilir. Konqresin yekunları əsasında geniş elmi əməkdaşlıqların davam etdirilməsi və gələcək illərdə müştərək layihələrin həyata keçirilməsi planlaşdırılır.








# ROBOTEX AZƏRBAYCAN

**Robotex Azərbaycan festivalında 6 universitet, 41 məktəb, 10 özəl müəssissədən 250 -dən artıq komanda iştirak etmişdir. 90 komanda müxtəlif adda start-up layihələri ilə yarışmaya qatılmışdır. Ümumilikdə 1500 iştirakçı yarışmış və 5000 ziyarətçi qatılmışdır.**

Robotex İnternational dünyada robot texnologiyalarının inkişafını təşviq edən, robot sahəsində qabaqcıl layihələri mərkəzləşmiş şəkildə dəstəkləyən, bu sahədə universitetlər, elmi mərkəzlərin fəaliyyətini nümayiş etdirən güclü platformadır. Naxçıvan Dövlət Universiteti olaraq Robotex Azərbaycan festivalının təşkilində əsas tərəfdaş kimi çıxış edirik. Universitetimiz ölkəmizin müxtəlif bölgələrində fəaliyyət göstərən ali, orta və peşə məktəblərinin müəllim və tələbələri üçün Bakı şəhərində ADA Universiteti, Bakı Ali Neft Məktəbi və Azərbaycan Dövlət Pedaqoji Universitetində mentorluq təlimləri təşkil edilmişdir. Robotex Azərbaycan şagirdlərdən mütəxəssislərə qədər geniş iştirakçı auditoriyasına xitab edərək problem həll etmə bacarıqlarını inkişaf etdirməyi və innovativ bacarıqların ortaya çıxarılmasını hədəfləyən bir platforma kimi fəaliyyətinə davam etməkdədir.















# IBM İLƏ ƏMƏKDAŞLIQ

**Texnologiya lideri IBM ilə Naxçıvan Dövlət Universiteti arasında strateji əməkdaşlıq: inkişafın yeni üfüqləri**

IBM-in qlobal texnologiya liderliyi və Naxçıvan Dövlət Universitetinin təhsildə mükəmməllik vizyonu Proqramlaşdırma Mühəndisliyi İnstitutu vasitəsilə bir araya gələrək regionda mühüm bir yeniliyə imza atmışdır. Bu strateji tərəfdaşlıq universitetin hüdudlarını aşaraq bölgənin rəqəmsal transformasiyasına rəhbərlik edən bir model yaratmışdır.

Proqramlaşdırma Mühəndisliyi İnstitutunun akademik və əməkdaşlıq maraqları ilkin olaraq Süni intellekt, Bulud texnologiyaları, Kibertəhlükəsizlik, Data elmi, Dizayn düşüncəsi sahələrinə yönələcək. Belə ki, Naxçıvan Dövlət Universiteti ilə IBM arasında imzalanan əməkdaşlıq müqaviləsinə əsasən NDU “Skills Build for Academia” proqramına qoşulmuşdur. Bu proqrama tədris materialları və TTT (train the trainer) kursları daxildir. Bu kurs çərçivəsində 5 modul üzrə təlimlərin aparılması və ilkin olaraq 20 professor-müəllim heyətinin təlimlərdə iştirakı planlaşdırılır. Ötən ilin oktyabr, dekabr aylarında keçirilən “Bulud texnologiyaları”, “Süni intellekt” və “Dizayn düşüncəsi” təlimlərinə Naxçıvan Dövlət Universitetinin 9 əməkdaşı qoşularaq IBM-dən sertifikat əldə etmişdir. 2024-cü ilin yanvar və aprel aylarında digər 2 modul – “Data elmi” və “Kibertəhlükəsizlik” üzrə təlimlər baş tutacaq. Bu təlimlərin keçirilməsində əsas məqsəd universitetin müəllim-professor heyətini yeni yaradılacaq Proqramlaşdırma Mühəndisliyi İnstitutuna təlimçi kimi hazırlamaqdır.

Naxçıvan Dövlət Universiteti regional təhsil müəssisəsi kimi tələbələrə təkcə bilik ötürmək üçün deyil, həm də onları gələcəyin texnoloji çağırışlarına hazırlamaq məqsədilə fəaliyyət göstərir. Müasir təhsil yanaşmasını mənimsəyən universitet tələbələrə rəqabətli rəqəmsal dünyada uğur qazanmaq üçün lazımi imkanlar təqdim edir. IBM ilə qurulan əməkdaşlıq bu vizyonun mühüm əksidir. Bu strateji tərəfdaşlıq Naxçıvan Dövlət Universitetinin təhsil proqramlarına əlavə dəyər qatır, tələbələrə daha geniş perspektiv və sənaye standartlarına uyğun biliklər verir.

Eyni zamanda, Fransa Respublikası vətəndaşı, IBM-in universitetlər üzrə əlaqələndirici şəxsi Hayri Sayı tərəfindən dizayn həlləri, süni zəka, proqram mühəndisliyi mövzularında bir həftə müddətində təşkil edilən təlim. Bu təlimlərdə Naxçıvan Dövlət Universitetinin 20 əməkdaşı iştirak etmiş və təlimlərin əsas məqsədi texnologiya sahəsində peşəkar kadrlar yetişdirmək və müstəqil tədqiqat və inkişafı dəstəkləmək olmuşdur.









# ENACTUS

**Naxçıvan Dövlət Universitetinin Enactus komandası ardıcıl olaraq beşinci dəfə "Enactus Azərbaycan Milli Yarışı"nın qalibi olmuşdur.**

Bu nəticə, universitetin sahibkarlıq təhsili və tələbələrin şəxsi inkişafına verdiyi diqqətin göstəricisidir.

Universitetin rektoru Elbrus İsayev, "Enactus" Azərbaycanın rəhbəri Rəşad Zeynalovla keçirilən görüşdə komandanın müvəffəqiyyətlərini vurğulamışdır. Rektor, Enactus yarışlarının tələbələrin sahibkarlıq və idarəçilik bacarıqlarını inkişaf etdirdiyini və gənclərin ölkənin iqtisadi potensialının gücləndirilməsində mühüm rol oynadığını qeyd etmişdir. Bununla yanaşı, Elbrus İsayev universitetin bu sahədəki fəaliyyətlərinin davamlı olaraq genişləndiyini və yeni layihələrin planlaşdırıldığını bildirmişdir.

Rəşad Zeynalov isə görüş zamanı NDU-nun Enactus komandasını beşinci dəfə qalib gəlmələri münasibətilə təbrik edərək, komandanın Astana şəhərində keçiriləcək "Enactus Dünya Kuboku"nda Azərbaycanı təmsil edəcəyini xatırlatmışdır.

Görüşdə həmçinin, NDU-ya Qlobal Enactus və Enactus Azərbaycanın diplomu təqdim edilmişdir. Komandanın rəhbəri Ülvi Baxışlı isə göstərdiyi xidmətlərə görə diplomla təltif olunmuşdur.

Bu uğur, Naxçıvan Dövlət Universitetinin gənclərin təhsil və inkişafına verdiyi töhfəni bir daha sübut edir və ali təhsil müəssisəsinin beynəlxalq səviyyədə tanınmasına əlavə imkanlar yaradır.









# FEMİDA KÖNÜLLÜLƏRİ

**Naxçıvan Dövlət Universiteti ilə “Femida Könüllüləri” Təşkilatı Arasında Əməkdaşlıq Memorandumu**

Naxçıvan Dövlət Universiteti və “Femida Könüllüləri” Təşkilatı arasında imzalanmış əməkdaşlıq memorandumu tələbələrin nəzəri biliklərini praktikada tətbiq etmə bacarıqlarının inkişafına və onların əmək bazarına uyğun hazırlıqlı kadrlar kimi formalaşmasına imkan yaradır. Bu təşəbbüs, tələbələrin bilik və bacarıqlarını artırmağa, gələcək karyera imkanlarını genişləndirməyə yönəldilib.

Memorandum eyni zamanda universitetin tələbələri üçün könüllülük fəaliyyətinin təşkili istiqamətində yeni imkanlar açır. Könüllülük proqramlarının məqsədi, tələbələrin təhsil aldığı müddətdə nəzəri biliklərlə yanaşı, təcrübə toplamasına şərait yaratmaqdır.

Təşkilatın məqsədləri arasında hüquq sahəsində təhsil alan gənclərin peşəkar inkişafına töhfə vermək, dövlətin həyata keçirdiyi hüquqi maarifləndirmə və gənclər siyasətinə dəstək göstərmək daxildir. Bu əməkdaşlıq gələcəkdə birgə layihələrin və proqramların həyata keçirilməsi üçün hüquqi əsas yaradır. Təşkilatın fəaliyyətinin əsas istiqamətləri, könüllülük proqramlarının strukturu və tələbələr üçün təqdim olunan imkanlar memorandum çərçivəsində müəyyənləşdirilib.













Naxçıvan şəhəri, Universitet şəhərciyi
+994 36 544 08 61